№ 02 (997) 11-17 yanvar 2018-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Azərbaycan regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilir




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışında iştirak edib, kompleksdə görülən işlərlə tanış olub. İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına görülən işlər barədə məlumat vermişdir.

Bildirilmişdir ki, Baş Plana əsasən, yeni liman kompleksinin hazırda inşası aparılan birinci fazası 12 yanalma körpüsünə malik olmaqla, yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min ədəd 20 futluq konteyner təşkil edir. Birinci faza çərçivəsində Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, eləcə də xidməti donanma gəmiləri üçün 1 körpü nəzərdə tutulub. Həmçinin xidməti donanma gəmiləri üçün təmir bazasının, limanın əməliyyat binasının, yük sahələri və anbarların, sərhəd və gömrük xidməti məntəqələrinin, ümumilikdə, 72 müxtəlif təyinatlı bina və qurğuların tikintisi, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi, kranların alınması, təchizatı və quraşdırılması aparılacaq. Kompleksdə xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni zamanda 11 kiçik gəminin yan alması mümkündür.

Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malikdir. Layihənin həyata keçirilməsinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncamla başlanıb.

Dövlətimizin başçısının müvafiq Sərəncamının icrası ilə bağlı verilmiş tapşırığa əsasən, bu kompleksin inşası üçün 400 hektar torpaq sahəsi ayrılıb. Yeni limanın hazırda inşası aparılan birinci fazası ümumi ərazinin 117 hektarını əhatə edir.

Prezident İlham Əliyevin "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə" 2017-ci ildə imzaladığı Sərəncama əsasən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisi üzrə layihənin davam etdirilməsi və yekunlaşdırılması üçün icra olunacaq işlərin sifarişçisi İqtisadiyyat Nazirliyi təyin edilib. Dövlətimizin başçısının bu istiqamətdə qarşıya qoyduğu vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün işlərin başlanma və tamamlanma tarixləri göstərilməklə Tədbirlər Planı işlənib hazırlanıb və uğurla icra edilir. Sifarişçi tərəfindən xarici və yerli mütəxəssislərin iştirakı ilə limanın Baş Planı təkmilləşdirilərək müvafiq qaydada razılaşdırılıb və təsdiq edilib, layihə qrafiki buna müvafiq olaraq yenilənib. Hazırda limana çəkisi 7-8 min tonadək gəmilər daxil olur.

Prezident İlham Əliyevə yeni Ro-Ro terminalı barədə məlumat verilmişdir. İldə 60 minə yaxın TIR və ya 1,8 milyon ton yük qəbul etmək imkanında olan terminal ən müasir texniki tələblərə uyğun tikilib. Terminaldakı birinci körpünün illik yükaşırma qabiliyyəti 800 min ton, ikinci körpününkü isə 1 milyon tondur. Ro-Ro terminalı iki yanalma körpüsündən ibarətdir. Birinci körpünün uzunluğu 222 metr, ikinci körpünün uzunluğu isə 190 metrə yaxındır. Terminal daşımaların avtomobil-su və su-avtomobil seqmentlərində təkərli texnikanın daşınması üçün nəzərdə tutulur.

Dövlətimizin başçısı terminalın açılışını etmişdir.

Buradakı sistem suyun səviyyəsinin enib-qalxmasından asılı olmayaraq gəmilərin təhlükəsiz şəkildə körpüyə yanalmasını təmin edir. Layihə qrafikinə əsasən, bu il yanvarın sonunadək digər yeddi ümumi yük körpüsünün tikintisi tamamlanacaq. 2018-ci ilin birinci rübünün sonunadək isə anbarların, yardımçı binaların, digər əlaqəli infrastruktur obyektlərinin inşasının, onların mühəndis-kommunikasiya xətlərinin çəkilməsinin, həmçinin yardımçı sistemlərin quraşdırılmasının yekunlaşdırılması nəzərdə tutulur. Limanın əməliyyat binasının inşası isə bu ilin mayında bitəcək.

Layihə çərçivəsində müasir tələblərə cavab verən informasiya texnologiyaları və təhlükəsizlik infrastrukturunun yaradılmasına xüsusi diqqət göstərilir. Bu məqsədlə liman ərazisində əməliyyatların səmərəli idarə olunmasını təmin edəcək Liman İdarəetmə və İnformasiya Sisteminin və digər informasiya texnologiyaları komponentlərinin tətbiqi, eləcə də Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Kodeksin tələblərinə uyğun mühafizə sisteminin yaradılması nəzərdə tutulur.

Sonra dövlətimizin başçısına hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin inşaat ərazisində görülən işlər barədə məlumat verilmişdir.

Yeni liman ötən il istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün bilavasitə yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəql olunmasını təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limana daha geniş tranzit və daşıma imkanları təmin edəcək.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu layihələr ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafında müstəsna rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə, tranzit imkanlarının genişləndirilməsinə mühüm töhfə verir, Azərbaycanın tranzit potensialını gücləndirir.

## Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlətimizin başçısı iclasda giriş nitqi söyləmişdir. Sonra maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev çıxış etmişlər. Daha sonra Prezident İlham Əliyev iclasda yekun nitq söyləmişdir.



# İlin siyasi və iqtisadi YEKUNLARI

**Bu günlərdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə və Milli Məclisin deputatı, professor Elman Nəsirov ilin siyasi və iqtisadi yekunlarının müzakirəsinə həsr olunmuş "Bizim Planet" verilişinin qonağı olmuşlar. Bu verilişdən hazırladığımız materialı "İqtisadiyyat" qəzetinin oxucularına təqdim etmək istərdik.**

**-Aparıcı Rüfət Həmzəyev: Ziyad müəllim, təbii ki, il ərzində görülən işlər, reallaşdırılmalı olan regional və beynəlxalq layihələr hədsiz çoxdur. Sizcə, Azərbaycanın iqtisadi tarixində 2017-ci il necə yadda qalacaq?**

- **Ziyad Səmədzadə:** Əvvəla, mən təşəkkür edirəm ki, hörmətli Elman müəllimlə birlikdə bu gün sizin qonağınızıq. 2017-ci il Azərbaycan tarixində uzun illər yadda qalan bir il olacaqdır. Çünki 2017-ci ildə Azərbaycan iqtisadiyyatında çoxsaylı fundamental işlər görülmüşdür ki, həmin işlərin reallaşması uzun illər, onilliklər boyu Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına, Azərbaycan iqtisadiyyatının strukturunun şaxələndirilməsinə, bütövlükdə ölkəmizin iqtisadi təhlükəsizliyinə, təbii ki, xalqımızın da yaxşı yaşamasına xidmət edəcəkdir. Açığını deyim ki, qruplaşdırmaq çox çətindir, hadisələr çox böyükdür. Qlobal layihələr var ki, onların reallaşması, nəinki Azərbaycan, istər balaca bir region, istərsə də böyük bir region və dünya üçün əhəmiyyətlidir. İlk növbədə, onu demək istəyirəm ki, Azərbaycan iqtisadiyyatında 2017-ci il qlobal risklərin azalması, onun iqtisadiyyata təsirinin zəifləməsi ilə müşahidə olundu. Artıq biz dinamik inkişaf üçün fundamental baza yaratmışıq və ona görə də deyə bilərik ki, 2018-ci ildə Azərbaycan iqtisadiyyatının dinamik və keyfiyyətli inkişafı istiqamətində böyük işlər görüləcək. Ən böyük layihələrdən biri də, fikrimcə, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsidir. Bakı-Tbilisi-Qars dəmir yolu 2017-ci ilin çox nəhəng uğurudur, çünki illər boyu, əsrlər boyu xalqlar yaxşı yol uğrunda mübarizə aparıblar. Dövlətlər arasında orta əsrlərdə də, son əsrlərə qədər də müharibələrin çoxu yollara görə başlayıb. Hansı yolları ələ keçirək ki, bizim dünyaya çıxışımız təmin olunsun? Qədim İpək yolunun bərpası çox mürəkkəb və fundamental bir lahiyədir. Azərbaycan strateji məkanda - Qərblə Şərqin qovşağında yerləşir və Qədim İpək yolunun Azərbaycandan keçməsi üçün Azərbaycan dövləti uzun illərdir ki, gərgin mübarizə aparır. 1998-ci ildə Heydər Əliyev dünyanın aparıcı dövlət başçılarını Bakıya dəvət etdi, bir yerə yığdı və Bakıda böyük sammit keçirdi. 33 ölkənin baş naziri və prezidenti burada iştirak edirdi. Bakı sammiti bəyənnamə qəbul etdi. Bəyannamə dünyaya bəyan etdi ki, Azərbaycan müstəqil dövlət kimi bu yolun üzərində dayanıb sizinlə əməkdaşlıq etməyə hazırdır. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolunun açılması nəticəsində iki qitə birləşdi.

**Aparıcı: Onda bu həm də müstəqilliyin möhkəmləndirilməsi deməkdir?**

- **Ziyad Səmədzadə:** Bu, müstəqilliyin möhkəmləndirilməsinin ən vacib şərtlərindən biri idi. 1994-1995-ci illərdə Rusiyanın bizi istəməyən qüvvələri şimal yolunu bağlamışdılar. Azərbaycan iqtisadiyyatına çox böyük zərbələr vuruldu. Amma bu gün artıq bizim Qədim İpək yolu kimi böyük bir tranzit yolumuz var. Mən bir dəfə də qeyd etmişəm və cənab prezidentin sözlərini əsas tutaraq, yenə də demək istəyirəm ki, Qədim İpək yolu Azərbaycan üçün daimi kapitaldır, daimi siyasi mövqedir, daimi gəlir mənbəyidir və Azərbaycan dövlətinin, onun iqtisadi müstəqilliyinin, iqtisadi təhlükəsizliyinin təmin edilməsində ən başlıca amillərdən biridir. Mən digər lahiyə, məsələn, "Şahdəniz" lahiyəsinin iqtisadi əhəmiyyəti haqqında demək istəyirəm ki, 2017-ci il əvvəlki illlərdən miqyasına, əhatə dairəsinə, kapital tutumluluğuna, əmək tutumluluğuna görə fərqləndi və daima inkişafımıza xidmət edəcək lahiyə kimi yadda qalacaq. Mən birmənalı şəkildə xalqımızı təbrik etmək istəyirəm ki, Azərbaycanın gələcək iqtisadi uğurları üçün 2017-ci ildə çox möhkəm fundamental əsaslar yaradılmışdır.

**-Aparıcı: İndi isə istərdim, Elman müəllim, siz də qısa olaraq fikirlərinizi bildirəsiniz, siyasi cəhətdən, siyasi nöqteyi-nəzərdən Azərbaycan üçün bu il necə yadda qaldı?**

- **Elman Nəsirov:** Hörmətli Ziyad müəllim iqtisadi məsələlər haqqında məlumat verdi. Mən siyasi məsələlərlə əlaqədar ilin bəzi yekunları ilə bağlı fikirlərimi paylaşmaq istəyirəm. 2017-ci il ölkəmizdə "İslam həmrəyliyi ili" elan edilmişdir. Bu nöqteyi-nəzərdən 2017-ci il dinlərarası, mədəniyyətlərarası barışığın, əmin-amanlığın əldə edilməsinə töfhələrlə daha çox yadda qaldı. Məsələyə xronoloji ardıcıllıqla yanaşsaq, hesab edirəm ki, ilin ən yaddaqalan hadisələrindən biri Bakıda keçirilən Qlobal Bakı Humanitar Forumudur. Mənim bu məsələni xüsusi qabartmaqda məqsədim cənab prezidentin də bununla bağlı fikirlərini diqqətə çatdırmaqdır. Cənab prezident bu məqamdan danışanda qeyd edib ki, dünyanın iqtisadi elitasının toplandığı yer Davos İqtisadi Forumudur. Yəni, dünyanın ən mürəkkəb iqtisadi məsələləri və onların həlli yolları Davosda araşdırılır. Dünyanın təhlükəsizlik məsələləri dedikdə, dərhal Münhen Təhlükəsizlik Forumu yada düşür. Bu da bir həqiqətdir. Amma üçüncü bir platforma da Bakıda formalaşıb və bu forumun adı Qlobal Bakı Humanitar Forumudur. Bu forum sayca beşinci dəfədir keçirilir və Azərbaycan paytaxtından "İslam həmrəylik ili"ndə dünyaya islam həmrəyliyi ilə bağlı ülvi hisslər, duyğular paylaşılır.

Biz multikulturalizm dəyərlərini ixrac edən bir ölkə imicinə malikik. Bunlar isə Bakı forumunun ən mühüm göstəricilərindən biri idi. Bunun ardınca ölkəmizdə sayca "Dördüncü mədəniyyətlərarası dialoq forumu" keçirildi. Bu forumun əhəmiyyəti onda idi ki, Azərbaycanla yanaşı, daha 6 beynəlxalq təşkilat da burada iştirak edirdi və bu tədbir onların təşkilatçılığı ilə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilirdi. Yenidən dünyanın həm siyasi, həm iqtisadi elitası, çox böyük tanınmış şəxsiyyətləri, nobel mükafatçıları Azərbaycanın paytaxtına gəlir və Azərbaycanda gedən bu iqtisadi, siyasi islahatları, buradakı təhlükəsizlik mühitini, buradakı ictimai-siyasi sabitliyi, bu abu-havanı öz gözləri ilə görür və vətənlərinə qayıdanda, sözün həqiqi mənasında, bizim elçimizə çevrilirlər. Yəni, o həqiqətləri görüb paylaşırlar. Elə insan var ki, bunları yalnız yaxınları, dostu, qohum-əqrabası ilə paylaşa bilir, lakin Bakıya elə şəxsiyyətlər gəlmişdi ki, onlar bir dövlətə, bir millətə bu informasiyanı daşıyırdılar. Bu baxımdan mən bu hadisəni xüsusi qeyd etmək istərdim. Yəqin ki, ən mühüm hadisələrdən biri məhz Azərbaycan paytaxtında keçirilən IV İslam Həmrəylik oyunları idi və bu oyunlar Azərbaycanın bir neçə istiqamətdə növbəti dəfə dünyada mövqelərini təsdiqlədi. Bir daha bütün dünyaya məlum oldu ki, Azərbaycan, sözün həqiqi mənasında, inkişaf etmiş bir idman ölkəsidir, yəni müsəlman ölkələri içərisində biz birinciliyi növbəti dəfə təsdiqlədik. Bu, bizim idman nailiyyətimiz idi. Amma, eyni zamanda, bunun başqa bir siyasi mənası, siyasi çəkisi də onda idi ki, axı, bəzi müsəlman ölkələri heç də müsəlman həmrəyliyinə adekvat addım atmırlar. Bilirsiniz, "İslam həmrəyliyi ili"-ni elan etmək Azərbaycanda müxtəlif dinlərin daşıyıcıları arasında bir ixtilafın olduğunu demək deyildi. Azərbaycan cənab prezidentin də qeyd etdiyi kimi, dünya miqyasında sözünün mənası və çəkisi böyük olan bir dövlətdir. Yəni, dünyada 57 müsəlman ölkəsi var, bir milyard beş yüz milyondan artıq müsəlman yaşayır, elə də böyük olmayan Azərbaycan dövləti bu oyunları keçirməklə bir müsəlman dünyasına ismarıc göndərdi ki, gəlin, bir yerdə olaq, gəlin, bir-birimizi dəstəkləyək, həmrəy olaq, biz həmrəy olanda həm də güclü oluruq.





*Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur.*

***İlham Əliyev***

**-Aparıcı: Elman müəllim, siz qeyd etdiniz ki, Azərbaycan artıq öz dəyərlərinin təbliğatçısına çevrilib və 2017-ci ilin "İslam həmrəyliyi ili" elan olunmasına toxundunuz. Mövzunu bir az da genişləndirmək istəyirəm. "İslam həmrəyliyi ili"ndə Azərbaycan həm də xarici ölkələrdə birgə beynəlxalq tədbirlər keçirməklə öz multikultural dəyərlərini nümayiş etdirmişdir. Məsələn, Orta Asiyadan Qərbi Avropaya qədər böyük bir arialda Prezident İlham Əliyevin təşəbbüskarı olduğu bu ideyanın yayılması baş verdi, yəni Özbəkistanda, İspaniyada, Finlandiyada və qonşu ölkələrdə - İranda, Rusiyada, Türkiyədə: həm ikitərəfli münasibətlər baxımından ölkələr arasında, həm də geniş bir regionda çox müsbət qəbul olundu. Siz forumun iştirakçıları olan qonaqlarla da ünsiyyətdə olmusunuz. Münasibət necədir?**

- **Elman Nəsirov:** Münasibət belədir ki, həmin forumun iştirakçıları, təbii ki, çox gözəl dərk edirdilər ki, bu günlərdə, xüsusilə Avropada islamafobiya - irqçiliklə bağlı çox ciddi problemlər yaşanmaqdadır. Mənim yadımdadır ki, faşizm üzərində qələbənin 70 illiyi ilə bağlı cənab prezident Rusiyanın "Rossiya 24" kanalına müsahibəsində belə bir fikir söylədi ki, əgər beş il, on il öncə Avropanın küçələrində yenidən neofaşist gənclərin yürüşlərinin olacağını, onların nümayişlər keçirəcəyini, mitinqlərin olacağını desəydilər, buna heç kim inanmazdı. Hesab edərdilər ki, bu, utopiyadır, reallaşması mümkün olmayan bir məsələdir. Amma bu gün biz nəyin şahidiyik? Almaniyada Pegida deyilən gənclər təşkilatı neofaşist şüarlarla çıxış edir, "Avropa Avropa üçündür" şüarını irəli sürür. "Heç bir müsəlmanı Avropaya qəbul etmək olmaz" şüarı ilə çıxış edir, yəni neofaşist bir düşüncə tərzini daşıyırlar. Cənab prezident də vurğuladı ki, bu gün bu qüvvələr Avropada hakimiyyətdə deyillər. Lakin onlar hakimiyyətə gəlmək isəyirlər. Üç ildən, beş ildən sonra onlar hakimiyyətə gəlsələr, bizim dünyamızı nə gözləyir? Bir dəfə onlar hakimiyyətə gələndə İkinci Dünya müharibəsi oldu. Bax, bu məntiqlə çıxış edəndə, Azərbaycan dövlətinin bu gün multikulturalizm dəyərlərinə üstünlük verməsi o deməkdir ki, biz islamafobiyaya yox deyirik, biz ksenofobiyaya "yox" deyirik, biz irqçiliyə "yox" deyirik, antisetilizmə "yox" deyirik və bunları biz təkcə sözdə demirik. Azərbaycanın paytaxtında belə tədbirlər keçirməklə, ev sahibi olmaqla həm də dünyaya göstəririk ki, "Azərbaycan" deyilən çox da böyük olmayan bir müsəlman ölkəsi var, bu, bir modeldir, bir nümunədir, məhz bu ölkədən dünyaya belə bir ülvi hisslər, duyğular, idealar yayılmaqdadır.

**-Aparıcı: Təşəkkür edirəm. Ziyad müəllim, bu, bir siyasi təbliğatdır. Siyasi təbliğatın da rəhnini iqtisadi uğurlar təşkil edir. Biz bilirik ki, dünya birjalarında neft və enerji qiymətləri düşdükdən sonra Azərbaycan iqtisadiyyatında keyfiyyətcə yeni bir mərhələ başladı və bu yeni mərhələdə, təbii ki, islahatlar davamlı və sistemli xarakter alıb. Burada ali səviyyəli iradə və Prezident İlham Əliyevin təşəbbüsü var. Bu islahatlar baxımından ili necə qiymətləndirə bilərik, yaxın və orta perspektivdə Azərbaycan iqtisadiyyatını nələr gözləyir?**

- **Ziyad Səmədzadə**: Mən, ilk növbədə istəyirəm ki, Elman müəllimin islam həmrəyliyi ilə bağlı dediyi fikirləri genişləndirim, bəzi əlavələr edim. Dünyada bir milyard yarım müsəlman o prinsiplərlə yaşayır, amma bu islam ölkələrinin dünya iqtisadiyyatında rolu o qədər də yüksək deyildir. İnsan inkişafı indeksinə görə, elmin, təhsilin inkişafına görə, yoxsulluq səviyyəsinin yüksək olmasına görə bu ölkələrin çoxu az inkişaf etmiş ölkələr sırasındadır. O ölkələrin nümayəndələrinin cəmi 26 il müstəqil olan Azərbaycana gəlməsi və burada baş verən dəyişiklikləri görməsi onlar üçün ibrət dərsidir. Dünyada neftlə zəngin olan islam ölkələri var. Bəs, necə olur ki, onların büdcəsi Azərbaycandakından dəfələrlə azdır? Bunun səbəbi nədir? Bunun səbəbi ondadır ki, Azərbaycan müstəqil iqtisadi siyasət yeridir. Azərbaycanın iqtisadi inkişaf strategiyası daxili imkanlara əsaslanır. Biz xarici investorlardan istifadə etsək də, onlara qulaq assaq da, bizim iqtisadiyyatımızın kökündə möhtəşəm potensialımız durur. Ona görə mən yenə də deyirəm ki, belə tədbirlərin keçirilməsi Azərbaycanın dünyada, beynəlxalq aləmdə nüfuzunun artmasını göstərir. Gəlin, Azərbaycandan öyrənək, gəlin, Azərbaycanda olduğu kimi bu müəssisələri yaradaq. Öz müstəqilliyimizi qoruyaq, xaricdən o qədər də asılı olmayaq. O ki qaldı Azərbaycanda aparılan iqtisadi islahatlara, mən hesab edirəm ki, dövlət başçısının bütün fəaliyyətində yeniləşmə prosesi üstün yer tutur. Azərbaycan 1993-cü ildən bazar münasibətlərinin aparıcı rol oynamasını qeyd edib. Amma bu bazar iqtisadiyyatının qurulması məsələsində ulu öndər Heydər Əliyevin də, cənab prezident İlham Əliyevin də özünün spesifik baxışları var. Bu baxışlar nədən ibarətdir? Ondan ibarətdir ki, dövlət iqtisadiyyatın idarə edilməsində tənzimlənmə prinsiplərinə üstünlük verməlidir. Bizim apardığımız islahatlar da bu yeni iqtisadi sistemin təkmilləşməsinə yönəlib. Söhbət burada radikallıqdan getmir. Söhbət on beş il, iyirmi il bundan qabaq - keçid dövründə qəbul edilmiş qanunların müasir tələblər baxımından təkmilləşməsindən gedir. Eləcə də, bu yaxınlarda cənab prezident Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin (KOS) yaradılması ilə əlaqədar olaraq dəyərli bir fər-

# İlin siyasi və iqtisadi YEKUNLARI

***2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaqdır.***

***İlham Əliyev***

man verdi. Sahibkarlıq bu gün Azərbaycan iqtisadiyyatının strateji resursudur. Bu gün ölkənin ümumi daxili məhsulunun 80%-i özəl sektorun payına düşür. Amma bizim imkanlarımız çoxdur. Biz kiçik, orta sahibkarlığı inkişaf etdirməliyik. İqtisadiyyat Nazirliyinin nəzdində belə bir agentliyin yaradılması sahibkarlarımız üçün böyük imkanlar açır. Azərbaycan neft gəlirlərindən qeyri-neft sektorunun üstün inkişafı üçün istifadə edir. Baxın, görün, bizim qeyri-neft sektorunda hansı proseslər baş verir. Qeyri-neft sektorunun strukturunda respublika daxilində istehsal olunmuş xammalların emalı prosesi gedir. Yəni, emal sənayesinin strukturu təkmilləşir. Bax, bu, bizim iqtisadi islahatların ən mühüm cəhətlərindən biridir. Başqa bir mühüm cəhət ölkədə sənayeləşmə siyasətinin uğurla aparılmasıdır. 5-6 il bundan qabaq, yaxşı yadımdadır, cənab prezident Sənaye və Energetika Nazirliyini yaradana qədər bəzi insanlar fikirləşirdilər ki, biz müstəqil bir dövlətik, bizə sənaye siyasəti nə üçün lazımdır? Amma cənab prezidentin uzaqgörənliyi sayəsində Sənaye və Energetika Nazirliyi yarandı. Bu gün bizim artıq gələcəyə hədəflənmiş strategiyamız var. Sənaye siyasətinin istiqamətləri, aparıcı sahələr müəyyən olunub. Qeyri-neft sektorunun inkişafı, texnoparkların, sənaye məhəllələrinin yaradılması, bunlara vergi güzəştlərinin tətbiq olunması, bütövlükdə, Azərbaycanın iqtisadi simasını dəyişir. Cənab prezident Sumqayıt boru prokat zavodunda olarkən qeyd etdi ki, vaxtilə çox çətinliklə yaradılan Boru prokat zavodu yenidən quruldu. Artıq bizim ixrac potensialımız artacaq. Sumqayıtda yaradılan polimer zavodu, armabit zavodu Azərbaycan sənayesinin strukturunun təkmilləşməsidir. Bunlar nə ilə idarə olunur? İqtisadi islahatların təkmilləşdirilməsi ilə. Eləcə də, cənab prezident bu günlərdə Energetika Nazirliyinin nəzdində agentlik yaratdı. On il bundan əvvəl biz bunu yarada bilməzdik, 10 il bundan qabaq biz ASAN-ı da yarada bilməzdik. Çünki iqtisadiyyatımız buna hazır deyildi. Cəmiyyətdə baş verən proseslər təkmilləşməli idi. Ona görə də bu gün Azərbaycan dövlətinin apardığı iqtisadi siyasətin ana xətti dövlətin müstəqilliyini qorumaqdır, dövlətin iqtisadi təhlükəsizliyini təmin etməkdir. Ona görə də vergi siyasətində dəyişikliklər olmalıdır, maliyyə-kredit siyasətində təkmilləşmələr aparılmalıdır, ölkənin borcalma siyasətində artıq strategiya müəyyən olunub, biz onu da qəbul etməliyik. Hara baxırıqsa, hansı istiqaməti görürüksə, nəticə birdir - dövlət başçısının iqtisadi islahatlara sistemli yanaşması. Burada radikallıqdan söhbət getmir, təkmilləşmədən söhbət gedir. Burada biz bazarı fetişləşdirmirik. Cənab prezident 2009-cu ildə konstitusiyaya dəyişiklik etdi. Nə üçün? Azərbaycan sosialyönümlü bazar iqtisadiyyatı qurur. Ulu öndər də vaxtilə qeyd etmişdi ki, bazar iqtisadiyyatı ilə sosial məsələlər bir-birinə ziddir. Ona görə bu gün mən sizin sualınızı çox yüksək qiymətləndirirəm və hesab edirəm ki, Azərbaycan cəmiyyəti bilməlidir ki, iqtisadiyyatla sosial siyasət arasında sıx əlaqə var və bu sıx əlaqə özünü iqtisadi islahatların həm sosialyönümlüyündə, həm də iqtisadiyyatın diversifikasiyasının sürətlə getməsində göstərir. O ki qaldı Azərbaycanın gələcəyinə, buna mən çox inamla baxıram, 2018-ci il bizim üçün Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyidir. 100 il ərzində Azərbaycan hansı mərhələlərdən keçib? Təkcə bir fakt var, Birinci Dünya müharibəsi, İkinci Dünya müharibəsi, Vətəndaş müharibəsi, Qarabağ müharibəsi – bütün bunlara baxmayaraq, Azərbaycan əhalisi 4 dəfədən çox artıb. Bu, bizim nailiyyətimizdir, ona görə uğurlarımız 2018-ci ildə də davam edəcək, biz 3-4%, bəlkə də ondan çox inkişaf sürətlərindən danışacağıq.

**-Aparıcı: Ziyad müəllim çıxışının sonunda Qarabağ məsələsinə toxundu, təbii ki, Azərbaycanın uğurları ilə bərabər, Azərbaycanın təhlükəsizliyinə təhdid olan bir nömrəli məsələ, Azərbaycanın bir nömrəli problemi - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi qalmaqdadır və 2017-ci ilə bu kontekstdən baxsaq, bir sıra məsələlərin, hadisələrin baş verdiyini görərik. Burada, təbii ki, əsas tezislərdən biri substantiv danışıqlara başlamağın vaxtının yetişməsi idi və biz gördük ki, il ərzində həm də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan mülki əhalisinə qarşı müəyyən təxribat xarakterli addımlar, hətta ölümlə nəticələnən hallar oldu, biz yay aylarında gördük ki, yaş yarımlıq Zəhra və onun nənəsi Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində qətlə yetirildi. Biz görürük ki, danışıqlar prosesi müəyyən bir məqama, müəyyən bir yüksəlişə gəlib çatdıqda, Ermənistan tərəfindən müəyyən destruktiv addımlar atılır. Ümumiyyətlə, Elman müəllim, 2017-ci ili Azərbaycan Dağlıq-Qarabağ probleminin həlli istiqamətində atılan addımlar kontekstindən necə qiymətləndirirsiniz?**

**- Elman Nəsirov:** Hörmətli Ziyad müəllim iqtisadi vəziyyətimizlə bağlı ətraflı məlumat verdi, yəni biz bir daha əmin olduq ki, 2017-ci il iqtisadi baxımdan bizim üçün uğurlu bir il olub. Qarşıya qoyulan bütün hədəflərə çatmışıq, islahatlar davam edir və dərinləşdirilir. Yeganə həllini tapa bilməyən problem varsa, o da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Yəni, bu istiqamətdə heç bir irəliləyiş yoxdur, amma buna baxmayaraq, artıq tarixə qovuşmaqda olan 2017-ci ildə münaqişənin həlli ilə bağlı bizim mövqelərimiz həm hərbi, həm də diplomatik baxımdan güclənib. Aprel döyüşləri bir sınaq oldu və zəfər tariximizin şanlı səhifəsidir. O zaman biz hərbi üstünlük əldə etdik və onun əsasında diplomatik mövqelərimiz də güclənib. İki faktı qeyd etmək kifayətdir ki, bu problemin həlli baxımından bu il bizim hansı uğurlara imza atdığımızı görək. Yadınızdadır, aprel döyüşlərindən sonra Ermənistan prezidenti Sarkisyan belə bir ifadə söyləmişdi ki, o, daha Azərbaycan prezidenti ilə heç bir danışıqlara getməyəcək. Yox, əgər danışıqlara getsə, onun konkret şərtləri var ki, həmin şərtləri Azərbaycan prezidentinin qəbul edəcəyi təqdirdə danışıqlardan söhbət gedə bilər. Lakin o zaman Azərbaycan Prezidenti cənab İlham Əliyev Sarkisyanın bu absurd fikirlərinə reaksiya verib söyləmişdi ki, bu, onun növbəti axmaqlığıdır. Heç bir halda Azərbaycanla bu dildə danışmaq olmaz, biz heç bir şərti qəbul edəsi deyilik, şərtləri biz irəli sürürük. Yəni, biz diqtə edən tərəfik və nə oldu? Bu il oktyabrın 16-da Ermənistan prezidenti Azərbaycan prezidenti ilə danışıqlara getmək məcburiyyətində qaldı. Bilirsiniz ki, Ermənistan ziyalıları, Ermənistan diaspor nümayəndələri bu hadisəyə qiymət verərkən deyirdilər: "Sarkisyan növbəti dəfə bizi dünyada biabır etdi". Onlar yazırdılar və açıq şəkildə deyirdilər ki, əgər Sarkisyan Azərbaycan prezidenti ilə danışıqlara gedəcəkdisə, onda bu şərtləri niyə irəli sürürdü? Yəni, məlum oldu ki, Ermənistan prezidenti sözünün üstündə dayana bilməyən, siyasi iradəsi olmayan bir prezidentdir. Bu, artıq bütün dünyaya növbəti dəfə bəlli oldu. Bu hadisə bizim diplomatik qələbəmizdir. İkinci hadisə isə odur ki, Sarkisyan rejimi Dağlıq Qarabağda qondarma referendum keçirmək istədi. Lakin heç bir dünya dövləti, heç bir beynəlxalq təşkilat, heç bir qonşu dövlət bu seçkilərin nəticələrini tanımadı və eyni zamanda, ATƏT-in Minsk qrupu bəyanatla çıxış etdi və bu seçkilərin nəticələrini qanundan kənar bəyan etdi. Əgər beynəlxalq birlik, beynəlxalq birliyin subyektləri, ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar bu qondarma referendumun nəticələrini tanımırlarsa, bunun başqa bir izahı odur ki, deməli, onlar Dağlıq Qarabağın məhz Azərbaycanın tərkib hissəsi olduğunu təsdiqləyirlər. Ermənistanın hər dəfə belə qanunazidd addımlar atması əslində bu azəri torpağının məhz bizə aid olduğunu təsdiqləməsidir. Yəni, onların növbəti axmaqlığı bizim üçün siyasi dividendlər gətirir. Bunu da, məncə, ilin ən mühüm hadisələrindən biri kimi qeyd etmək olar. Nəhayət, bilirsiniz ki, Avropa İttifaqının Şərq tərəfdaşlıq proqramı çərçivəsində bu il noyabrın 24-də Brüsseldə Sammit keçirildi. Biz böyük səbirsizliklə gözləyirdik ki, nəhayət, budəfəki sammitin yekun qətnaməsində, yekun sənədində, bəyannaməsində düzgün yol seçəcəklər. Biz nəyin şahidi olduq? Dövlətimizin Avropa İttifaqı ilə apardığı intensiv danışıqlar, aparılan düzgün siyasət ona gətirib çıxardı ki, həmin zirvə görüşünün yekun sənədində münaqişələrin yalnız və yalnız beynəlxalq hüququn ərazi bütövlüyü çərçivəsində həlli məsələsi qoyuldu. Əvvəllər Ukrayna ilə, Gürcüstanla, Moldova ilə münasibətdə bu yanaşma idi, bizə gələndə isə güc tətbiq etməmək, güclə hədələməmək, xalqların öz müqəddaratını həll etmək hüququ, üstəgəl ərazi bütövlüyü məsələləri qeyd olunur. Amma bu dəfə birmənalı şəkildə qeyd etdilər ki, məhz ərazi bütövlüyü prinsipi həllini tapmalıdır. İlin sonunda da Avropa parlamenti Avropa İttifaqının xarici siyasət və təhlükəsizliklə bağlı qəbul etdiyi qətnamədə o tezisi, o ideyanı, o bəndi öz sənədinə əlavə etdi və bir öhdəlik götürdü. Yəni, bu gün Avropa İttifaqı, Avropa parlamenti bir öhdəlik götürür ki, Avropa İttifaqı ölkələrində, eyni zamanda, Azərbaycan da daxil olmaqla tərəfdaş altı ölkədə münaqişələrin həllində ərazi bütövlüyündən söhbət gedə bilməz, daha doğrusu, münaqişələrin həllində yeganə prinsip ərazi bütövlüyüdür. Hesab edirəm ki, 2017-ci il ərzində diplomatik uğurlar, hərbi gücümüz, potensialımız daha da güclənib. Biz ən müasir silahların sahibiyik, il ərzində daha iki zavod işə salınıb və ən başlıcası odur ki, bu gün bizim əsgərimizin, zabitimizin vətənpərvərlik ruhu son dərəcə güclüdür. O nəyin uğrunda döyüşdüyünün və nəyi müdafiə etdiyinin fərqindədir. Amma Ermənistan əsgərində bütün bunlar yoxdur, bu baxımdan mən də hesab edirəm ki, 2018-ci il bu münaqişənin həlli ilə bağlı bizim hərbi və diplomatik üstünlüyümüz fonunda başlayır.

**- Aparıcı: Elman müəllim, nəticə budur ki, Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilmir və bununla bərabər, 2017-ci ildə Azərbaycan həm də Prezident İlham Əliyevin təşəbbüsü ilə onu göstərdi ki, işğaldan azad olunacaq ərazilərdə işlər necə aparılacaq. Mən Cocuq Mərcanlıda tikilən evləri nəzərdə tuturam, bəli, təbii ki, bu Cocuq Mərcanlı prosesi Qarabağa böyük qayıdış planının bir tərkib hissəsidir. Ziyad müəllim, istərdik qısa olaraq bu haqda fikirlərinizi alaq.**

**- Ziyad Səmədzadə**: Mən bu barədə demişəm, qısa zaman kəsiyində aldığımız torpağımız gül-çiçəyə döndü, məktəb tikildi, evlər salındı. Yəni, bu, Azərbaycan dövlətinin gücünü göstərdi. Bir azərbaycanlı kimi çox şadam ki, bu gün respublikanın hər yerindən imkan tapıb ora gedirlər. Azərbaycan hərbi gücü baxımından çox yüksəkdir, bizim kifayət qədər resurslarımız var. Hər il büdcədə vəsaitlər nəzərdə tutulur, bizim güclü hərbi sənayəmiz formalaşır. Bütövlükdə, əminəm ki, Azərbaycan əraziləri, tezliklə alınacaq və qısa zaman kəsiyində Azərbaycanın qaynar həyatı orada da bərpa olunacaq. Bu gün regionların inkişafı istiqamətində irimiqyaslı layihələr həyata keçirilir. Sərhədlə üzbəüz rayonlarda da enerji təchizatı, su təchizatı, yolların çəkilməsi, əkin sahələrinin genişləndirilməsi, iri təsərüfatların yaradılması istiqamətində işlər görülür. Ona görə də mən tam əminəm ki, Azərbaycan dövlətinin, dövlət başçısının bu müdrik siyasəti qalib gələcəkdir. Biz öz torpaqlarımıza qayıdacağıq və bunun üçün kifayət qədər potensialımız var. Mən əminəm ki, hər bir azərbaycanlı o günü gözləyir ki, özünün bütün potensialını bu torpaqların çiçəklənməsinə həsr etsin.




**- Elman Nəsirov**: Bununla bağlı bir məsələyə toxunmaq istərdim. Ziyad müəllim qeyd etdi ki, bəli, bizim öz iqtisadi müstəqilliyimiz var. Bəli, iqtisadi müstəqillik olan yerdə siyasi müstəqillik başlayır. Bizim iqtisadi müstəqilliyimizə bugünkü reallıqdan baxanda, Ziyad müəllim, sizin o söylədiyiniz faktlara, rəqəmlərə mən də bəzi əlavələr etmək istəyirəm. Siz təsəvvür edin ki, bu gün 9 ayın yekunları bizə bəllidir. İlin sonu ilə bağlı cənab prezidentin Nazirlər Kabinetində növbəti müşavirəsi olacaq. Doqquz ayın yekunlarına görə, bizim iqtisadi gücümüzün ən mühüm göstəricilərindən biri çox böyük valyuta ehtiyatlarımızın olmasıdır. Doqquz ayın yekunlarına görə, valyuta ehtiyatımız 42 milyard dollara çatıb. Bu gün bu rəqəm 42 milyard dollardırsa, üç ay bundan qabaq, doqquz ayın nəticələrinə görə təxminən 38,5 milyard dollar idi. Yəni, ilin əvvəlindən doqquz ay ərzində bizim valyuta ehtiyatlarımız artıb. Bu, özü çox mühüm bir göstəricidir.

**- Ziyad Səmədzadə**: Bütövlükdə, Ermənistanın dövlət büdcəsindən çoxdur.

**- Elman Nəsirov**: Ziyad müəllim kənd təsərrüfatı, sənayə məsələlərinə toxundu. İndi doqquz ayın yekunlarına görə, qeyri-neft iqtisadiyyatının inkişafı əsas perspektiv istiqamətdir. Bizim qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb. Qeyri-neft sənayəmizdə daha böyük yüksəliş var - 3,1 faiz. Kənd təsərrüfatı perspektiv sahələrdən biridir. Bunun əsasında xarici ticarət dövriyyəmizdə 7 faiz

# İlin siyasi və iqtisadi YEKUNLARI

artım var. Doqquz ay ərzində artıq 4,4 milyardlıq müsbət saldomuz var. Yəni, ixracımız idxalı bu qədər üstələyib. Ən mühüm iqtisadi inkişaf göstəricilərimizdən biri odur ki, ölkəmizə investisiya qoyuluşu baxımından böyük nəticələr var. Yəni, biz investisiya qoyuluşu baxımından cəlbedici ölkə olmuşuq. Təxminən 8 milyard dollar bizə investisiya qoyulub ki, bunun da böyük bir hissəsi xarici investisiyadır. Yəni, bütün bunlar onu göstərir ki, iqtisadi müstəqillik bizim siyasi addımlarımızı şaxələndirir, bizdə ictimai siyasəti, sabitliyi, təhlükəsizliyi formalaşdırır. Eyni zamanda, bizim hədəflərimiz var və Davos İqtisadi Forumunda biz 37-ci mövqedən 35-ci mövqeyə yüksəldik. Bu da onu göstərir ki, biz dinamik inkişaf tempimizi 2017-ci ildə qoruyub saxlaya bilmişik və 2018-ci illə bağlı bizim konkret hədəflərimiz var. Cənab prezident qarşıdakı 10 il ərzində Azərbaycanı inkişaf etmiş dövlətlər sırasında görmək istəyir və bu istiqamətdə hər il addımlar atılır, bu, xülya deyil. Biz tam inanırıq ki, biz inkişaf etmiş dövlətlər sırasında olacağıq.

- **Ziyad Səmədzadə**: Mən bir ziyalı kimi, bütövlükdə cənab prezidenti izləyirəm. Cənab prezidentin çıxışlarında ana xətt respublika iqtisadiyyatının tarazlı inkişafıdır. Beş il, on il, on beş il bundan qabaq bunlardan danışmaq qeyri-mümkün idi, çünki biz keçid dövrünü təzə başa vurmuşduq. Cənab prezident «Şahdəniz» yatağının istifadəyə verilməsi ilə əlaqədar olaraq demişdir: Son on dörd ildə Azərbaycan iqtisadiyyatının nailiyyətləri həddən artıq çox olub, o haqda danışmaq çox vaxt aparar. Biz bu gün nə etdik, bizim dövlətimiz nəyə qadirdir? Azərbaycanın yanacaq-energetika kompleksi artıq formalaşıb. SOCAR dünyəvi bir şirkətə, dünyanın ən güclü transmilli şirkətlərindən birinə çevrilib. Dünyanın aparıcı şirkətləri Azərbaycanla əməkdaşlıq edir. Azərbaycan son 15 il ərzində özünün energetika balansını xeyri dərəcədə yaxşılaşdırıb. Adambaşına düşən elektrik enerjisinin istehsalına görə MDB məkanında ən qabaqcıl yerlərdən birini tuturuq. Azərbaycan həm özümüzün, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal iştirak edir. Azərbaycan bu gün Rusiya, İran iqtisadi əlaqələrinin mərkəzində dayanıb. Azərbaycan bu gün Türkiyə, Rusiya münasibətlərinin, iqtisadi əməkdaşlığın kökündə dayanır. Azərbaycan aqrar sektorun inkişafına çox sistemli yanaşır. Bunun nəticəsini biz nədə görürük? Urbanizasiya sistemlərinin təkmilləşməsində. Kənddən şəhərə axın o vaxt səmərəli sayıla bilərdi ki, orada əmək məhsuldarlığı artsın. Bir müddət bu nisbət pozuldu. Amma bu gün artıq Azərbaycanın kəndlərində qaynar həyat var. Regionların ixtisaslaşması prosesi gedir. Ənənəvi sahələrin, kənd təsərrüfatı sahələrinin dinamik inkişafı təmin olunur. Dövlət dəstəyi artır və nəticədə biz nəyi görürük? Bizim ixrac potensialımız artır. Yəni, bu ixrac potensialının artması üçün biz yerlərdə işləri artırmalıyıq. Azərbaycan son on beş ildə bir dəfə də tədiyə balansında minus yaratmamışdır. Bütün bunlar nəyi göstərir? Bütün bunlar yenə də onu göstərir ki, iqtisadiyyatın idarə olunmasına sistemli yanaşma, dövlət nəzarətinin tətbiq edilməsi, mütəmadi iqtisadi strukturların dövlət başçısı qarşısında hesabatları, məsuliyyət hiss etmələri, iqtisadi strukturların, dövlət strukturlarının bilavasitə regionlara gedib, insanlarla görüşmələri onların qaldırdığı, lakin hələ də həll olunmayan problemlərin həllini tapmasıdır. Yəni, bütövlükdə hansı tərəfdən baxırsan, nəticə ondan ibarətdir ki, Azərbaycan dinamik inkişaf edən, keyfiyyətli inkişafa can atan, həvəs göstərən, onun üçün səyləri cəmləşdirən bir dövlətdir. Allah bizim dövlətimizi, cənab prezidentimizi, Mehriban xanımı qorusun ki, bu qədər gərgin işlərin öhdəsindən gəlir və gələcəklər. Azərbaycan dövlətinə, Azərbaycan dövlətinin başçısı cənab prezident İlham Əliyevə, onun silahdaşı Mehriban xanıma mən uğurlar arzu edirəm. Onların üzərinə çox böyük məsuliyyət düşür, onlar üzərlərinə çox böyük yük götürüblər.

- **Aparıcı: Elman müəllim, istərdim ki, qısa olaraq bir haşiyəyə çıxaq. Ziyad müəllim qeyd etdi ki, Azərbaycan artıq üçtərəfli və çoxtərəfli əməkdaşlıq formatları yaradıb. Bakı artıq müxtəlif ölkələrin bir araya gəldiyi platformaya çevrilib, yəni növbəti illərdə də bunlar olacaqmı?**

- **Elman Nəsirov**: Əvvəla, onu qeyd edim ki, cənab prezidentin müəyyən etdiyi xarici siyasət kursunun perspektiv istiqaməti birtərəfli, üçtərəfli və çoxtərəfli deyildir. Perspektiv istiqamət ikitərəfli istiqamətlər formatıdır, çünki bu format özünü doğruldub. İkitərəfli səviyyədə bizim münasibətlərimiz yüksək olanda, üçtərəfli, çoxtərəfli münasibətlər alınır. Cənab prezidentin bu ikitərəfli formatı sayəsində bizim Rusiya, Gürcüstan ilə tərəfdaşlıq münasibətlərimiz var, bizim İranla, Türkiyə ilə strateji tərəfdaşlıq, dostluq münasibətlərimiz var. Məhz bunun sayəsində bu gün Şərq-Qərb nəqliyyat dəhlizi işləyir. Bu münasibətlər sayəsində Şimal-Cənub nəqliyyat dəhlizi işə düşüb və Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycanla bağlı hissəsi başa çatıb. Bu ilin mart ayında Astara çayının üzərində biz bir körpü də saldıq. Biz bu nəqliyyat dəhlizlərinin də mərkəzində yerləşirik. Mən hesab edirəm ki, bir məsələyə toxunmaq çox vacibdir. Bu, bizim cəmiyyətimizin ən həssas təbəqəsi olan məcburi köçkün və qaçqınların vəziyyəti ilə bağlı məsələdir. 2017-ci ildə də bu istiqamətdə çox ciddi işlər görülüb, xüsusilə hörmətli Mehriban xanım Əliyeva ölkənin birinci vitse-prezidenti təyin edildikdən sonra birbaşa bu sahə onun nəzarəti altındadır. Onun sayəsində məcburi köçkünlər üçün Bakı şəhərində, Sumqayıtda mənzillər, eyni zamanda, bu yaxınlarda yeni mənzillər, yeni şəhərcik istifadəyə verildi. Bu istiqamətdə Qaçqınların və məcburi köçkünlərin işləri üzrə dövlət komitəsi çox böyük fəaliyyət göstərir. Yəni, bütün bu ümumi iş cənab prezidentin rəhbərliyi altında öz töhfəsini verir. 250 mindən artıq məcburi köçkün və qaçqın ailəsi evlə təmin edilib və onların sosial problemləri həllini tapıb. Mən belə hesab edirəm ki, artıq bu istiqamətdə bizim fəaliyyətimiz bir model yaradıb və təsadüfi deyil ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (QAK) Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyətini qiymətləndirir.

*Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq.*

*İlham Əliyev*

- **Aparıcı: Elman müəllim, siz çıxışınızda Azərbaycanın dünyanın beynəlxalq nüfuzlu reyting hesabatlarında mövqeyinin yaxşılaşdığını qeyd etdiniz. İstərdim ki, bir məqama toxunaq, bir analitik məruzəni diqqətinizə çatdırım. Bildiyiniz kimi, iqtisadi artım göstəricilərini əks etdirən beynəlxalq sorğular var və mən istərdim Niderlandın ING maliyyə holdinqinin analitik məruzəsinə toxunaq. Maliyyə holdinqinin analitik məruzəsinə əsasən, Azərbaycan vətəndaşlarının 81 faizi hökumətə etibar edir. Bundan əlavə, vətəndaşların 80 faizə yaxını gələcəyi nikbin qiymətləndirir. Eyni zamanda, Azərbaycanın özünün müstəqil araşdırma mərkəzi var. Onlar bir sual səsləndirmişdilər ki, əgər bir həftə sonra prezident seçkiləri keçirilərsə, namizədiniz kim olar? 80 faizdən yuxarı respondentlər prezident İlham Əliyevin adını səsləndirmişdilər. Bu da, təbii ki, xalqla iqtidar arasında birliyin bir mücəssəməsidir.**

- **Ziyad Səmədzadə**: Mən bu barədə fikirlərimi artıq mətbuatda açıqlamışdım. Heç şübhəsiz ki, xalqla iqtidar arasında sıx əlaqə var. Azərbaycan cəmiyyətində heç vaxt indiki qədər vətəndaş həmrəyliyi olmamışdır. Tarixi inkişafın ayrı-ayrı mərhələlərində, 80-ci illərin sonu 90-cı illərdə keçmiş Sovetlər miqyasında xaricilərin iştirakı ilə bir sorğu aparılmışdı. O vaxt əhalinin 50 faizdən çoxu inamsızlıq nümayiş etdirmişdi. Bu gün, baxın, Azərbaycan dövlətinin apardığı siyasət, bu siyasətin uğurlu nəticələri, dünyada Azərbaycanın beynəlxalq nüfuzunun artması, cənab prezidentə, birinci vitse-prezident Mehriban xanıma dünya ölkələrinin liderlərinin münasibəti necədir? Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının prezidenti hər bir Azərbaycan vətəndaşının prezidentidir. Mən xatırlayıram, cənab prezident 2003-cü il seçkilərində demişdi ki, biz xalqla birlikdə Azərbaycan dövlətini inkişaf etmiş dövlətə çevirəcəyik. Mən mətbuata belə bir başlıq altında yazı da vermişdim. Yəni, bu gün ölkədə aparılan iqtisadi islahatlar, siyasi islahatlar, dövlət quruculuğu, əhalinin sosial problemləri ilə əlaqədar görülən işlər cənab prezidentə ümumxalq məhəbbəti qazandırmışdır. Mən əminəm ki, gündən-günə bu keyfiyyət göstəriciləri 100-ə yaxınlaşacaq. Biz qloballaşan dünyanın bir dövlətiyik, amma bizə nə qədər təzyiqlər var. Hər bir görüş, hər bir reytinqin qazanılması bizə çox baha başa gəlir. 155 ölkə Azərbaycana səs verir ki, Azərbaycan BMT-də bir müddət sədrlik etsin. Amma vaxt var idi bizi heç tanımırdılar. Ona görə sizin sualınıza mən nikbin cavab verirəm. Mən əminəm ki, rəqəmlər bundan sonra da yüksək olacaq.

- **Elman Nəsirov**: Ziyad müəllim, maraqlı bir cəhəti də qeyd etmək istəyirəm. Mən dəfələrlə bunun şahidi olmuşam ki, cənab prezident öz mövqeyini belə ifadə edir: "Bəli, coğrafi baxımdan biz kiçik dövlətik". Amma o, heç bir zaman "biz kiçik dövlətik" ifadəsini işlətmir. Bilirsiniz niyə? Ona görə ki, biz çox böyük təşəbbüslərə imza atırıq. Dünya siyasətini müəyyən edən ölkələr var. Amma I Avropa Oyunlarını onlar yox, biz keçirdik və modeli də biz yaratdıq. İslam həmrəyliyi məsələsində bu gün dünyanın İndoneziya kimi nəhəng müsəlman ölkəsi var, eyni zamanda, Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, İranı da bura aid etmək olar. Elə də böyük olmayan Azərbaycan dövləti İslam həmrəyliyi məsələsini gündəmə gətirdi və buna nə qədər böyük ehtiyac var. Təkcə gündəmə gətirmir, təkcə nəzəri baxımdan məsələni qoymur, praktiki addımlar atır, konkret nəticələr özünü göstərir və mən də sizin o fikrinizlə şərikəm ki, bəli, elə bu prosesdə cənab prezidentin bu siyasətinə çox böyük dəstək verən, onu tamamlayan ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyevadır və bu səbəbdən də Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Mehriban xanım Əliyevanı "II dərəcəli Müqəddəs Məlaksima Knyaginya Olqa" ordeni ilə təltif edib. Bununla da, dünyaya bir mesaj göndərilir ki, Azərbaycan dövləti dünyada sülhə, əmin-amanlığa, dinlərarası barışığa çox böyük töhfələr verib və həmin töhfələri ölkə prezidenti İlham Əliyev və onun ən yaxın silahdaşı Mehriban xanım Əliyeva verir.

## Dünya Bankının proqnozu: Azərbaycan iqtisadiyyatı artacaq




Dünya Bankı 2018-ci ildə Azərbaycan iqtisadiyyatının 0,9 faiz səviyyəsində artacağını proqnozlaşdırır. Bu barədə "Global Economic Prospects" hesabatında deyilir.

Ötən ilin iyununda çıxan əvvəlki hesabatda Dünya Bankı ölkə ÜDM-inin cari ildə 0,3 faiz, 2019-cu ildə isə 0,2 faiz artacağını proqnozlaşdırmışdı.

Bankın analitiklərinin gözləntilərinə görə, gələn il ölkə iqtisadiyyatı 1,5 faiz, 2020-ci ildə isə 2,6 faiz artacaq.

## Asiya İnkişaf Bankı Azərbaycanla bağlı yeni strategiya hazırlayır

Asiya İnkişaf Bankı (AİB) Azərbaycanla bağlı 2019-2023-cü illəri əhatə edən yeni strategiya hazırlamağa başlayıb. Bu barədə bankın Bakı nümayəndəliyindən məlumat verilib.

"Biz artıq Azərbaycanla bağlı yeni strategiyanın hazırlanması üzərində işə başlamışıq, belə ki, 2014-2018-ci illəri əhatə edən mövcud strategiyanın müddəti bu il başa çatır.

Yeni strategiya da 5 illik olacaq və 2019-2023-cü illəri əhatə edəcək", - deyə məlumatda bildirilir. Cari ilin aprel-may aylarında AİB missiyası sənədlə bağlı müzakirələr aparmaq üçün Azərbaycana gələcək.

"Bizim qiymətləndirmələrimizə görə, III rübdə strategiyanın layihəsi baxılmaq üçün Azərbaycan hökumətinə təqdim olunacaq. Daha sonra bankın Direktorlar Şurası tərəfindən strategiyanın təsdiqlənmə tarixi müəyyən olunacaq", - deyə məlumatda qeyd olunur.

## Mərkəzi Bankın elektron imza sertifikatları bank sektorunda uğurla tətbiq edilir

Mərkəzi Bankın Bank Sertifikat Xidmətləri Mərkəzinin elektron imza sertifikatları bank sektorunda uğurla tətbiq edilib.

Bankdan Trend-ə verilən məlumata görə, "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin prioritetlərindən biri olan "Rəqəmsal ödənişlərin genişləndirilməsi" istiqamətində Mərkəzi Bank tərəfindən kompleks tədbirlər davamlı olaraq həyata keçirilməkdədir.

Məlumat mübadiləsi zamanı yüksək informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə Mərkəzi Bankda yaradılmış və 2014-cü ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən akkreditasiya edilmiş Bank Sertifikat Xidmətləri Mərkəzinin (BSXM) elektron imza alətlərinin yalnız Mərkəzi Bankın operatoru olduğu informasiya resurslarına, ödəniş və hesablaşmalar sistemlərinə deyil, həmçinin kredit təşkilatlarının müştərisi olan hüquqi və fiziki şəxslər üçün təklif olunan elekton bankçılıq və "müştəri-bank" xidmətlərində tətbiqinə başlanılıb.

Bu hədəfin realizasiyası çərçivəsində BSXM tərəfindən göstərilən elektron xidmətlərə kredit təşkilatlarının qoşulması, müvafiq səlahiyyət və öhdəliklərin müəyyən edilməsi məqsədilə kollektiv saziş hazırlanmış və kommersiya banklarının ardıcıl olaraq sazişə qoşulmaları təmin edilməkdədir. Cari ildə hesablaşmaların, standart və təcili ödənişlərin, vergi və ya digər büdcə ödənişlərinin, o cümlədən valyuta mübadiləsi xidmətlərinin daha effektiv təşkili məqsədilə PAŞA Bank tərəfindən həyata keçirilən "Business-to-business" layihəsi çərçivəsində məlumat mübadiləsinin təhlükəsizliyi BSXM-in elektron imza sertifikatları vasitəsilə təmin edilib və banka təqdim olunan bütün ödəniş tapşırıqlarının müştəri tərəfindən elektron imza ilə təsdiq edilərək avtomatlaşdırılmış qaydada göndərilməsinə başlanılıb.




Bank sektorunda müasir informasiya texnologiya infrastrukturunun yaradılması və rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində müvafiq tədbirlərin Mərkəzi Bank tərəfindən realizasiyası davam etdirilir və yaxın zamanlarda digər bankların da öz müştəriləri ilə münasibətlərdə BSXM-in xidmətlərindən istifadəsi planlaşdırılır.

## Открытие железной дороги Баку-Тбилиси-Карс стало дополнительным импульсом для Казахстанских железных дорог

Дополнительный импульс экспортным контейнерным перевозкам по маршруту Транскаспийского международного транспортного маршрута придал запуск паромного комплекса Курык и открытие железнодорожной линии Баку-Тбилиси-Карс.




Как сообщает АЗЕРТАДЖ со ссылкой на сайт Казахстанских железных дорог, об этом заявил руководитель АО «НК «Қазақстан темір жолы» Канат Алпысбаев, подводя итоги работы за 2017 год.

Отмечено, что объем транзитных железнодорожных перевозок грузов составил 16 миллионов тонн, что на 23 процента больше, чем в 2016 году. В 2018 году общий объем транзитных перевозок планируется увеличить до 17,1 миллиона тонн. Сохранены темпы роста контейнерных перевозок почти в два раза в направлении Китай – Европа – Китай, их объем составил порядка 201 тысяча TEU. В 2018 году общий объем перевозок сообщением Китай – Европа – Китай составит порядка 340 тысяч TEU.

Через паромный комплекс Курык обеспечена перевалка 1,5 миллиона тонн груза и в тестовом режиме введен в эксплуатацию автомобильный паромный переход.

## Баку - в первом ряду в рейтинге путешествий среди 193 стран

В статье, опубликованной известным американским информационным агентством USA today, столица Азербайджана Баку приведена в числе стран, в которые следует совершить путешествие в 2018 году.

В рейтинге, составленном для агентства молодым американским путешественником Салом Лавалло, посетившим 193 страны мира, Баку находится в первом ряду.

«Эта богатая нефтью столица инвестировала миллиарды в культуру и современную архитектуру. Прогулка по городу похожа на поход в музей под открытым небом», - сказал 27-летний путешественник, подчеркнув также гармонию современной архитектуры и древних зданий в городе.

В число городов, в которые следует совершить путешествие в первую очередь, входят также столица Восточного Тимора Дили, Абу-Даби (Объединенные Арабские Эмираты), Кигали (Руанда), Скопье (Македония), Бейрут (Ливан), Мендоса (Аргентина), Фритаун (Сьерра-Леоне), Асмара (Эритрея), Баган (Мьянма), Константина (Алжир).

## Минэнерго: В декабре суточная нефтедобыча в Азербайджане составила 810 тысяч баррелей

Азербайджан и в декабре 2017 года выполнил обязательство о сокращении нефтедобычи, отраженное в Венском соглашении стран-членов Организации экспортеров нефти (ОПЕК) и стран, не входящих в картель.

Как сообщили АЗЕРТАДЖ в Министерстве энергетики, министерство предоставило в Совместную техническую комиссию Совместного мониторингового комитета данные о суточной нефтедобычи в Азербайджане в декабре. Согласно этим данным в декабре прошлого года суточная добыча нефти по стране составила 810 тысяч баррелей. Из них 755,1 тысячи баррелей – сырая нефть, 54,9 тысячи баррелей – конденсат. Ежесуточно экспортировано 649,4 тысячи баррелей сырой нефти, 54,9 тысячи баррелей конденсата, 20,1 тысячи баррелей нефтепродуктов.

Отметим, что ежесуточная нефтедобыча по стране в январе составила 793,9 тысячи баррелей, в феврале - 776,4 тысячи баррелей, в марте 733,3 тысячи баррелей, в апреле - 781,1 тысячи баррелей, в мае - 785,3 тысячи баррелей, в июне - 793,7 тысячи баррелей, в июле - 796,7 тысячи баррелей, в августе - 734,8 тысячи баррелей, в сентябре - 785,7 тысячи баррелей, в октябре 800,6 тысячи баррелей, в ноябре 790,7 тысячи баррелей.

ОПЕК договорилась 30 ноября прошлого года в Вене о сокращении добычи на 1,2 миллиона баррелей в день с октябрьского уровня в целях стабилизации нефтяных цен. Одиннадцать не входящих в ОПЕК стран 10 декабря согласовали сокращение своей добычи суммарно на 558 тысяч баррелей, в том числе Азербайджан — на 35 тысяч баррелей в сутки и выполняет взятое обязательство. 25 мая 2017 года в рамках 172 заседания Совета министров ОПЕК страны-члены организации и не входящие в картель достигли договоренности о продлении срока сокращения добычи нефти до конца первого квартала 2018 года. А 30 ноябре текущего года на третьей встрече стран членов ОПЕК и стран, не входящих в картель, состоявшейся в рамках 173-го заседания Совета министров ОПЕК,



принято решение о продлении срока соглашения о сокращении нефтедобычи до конца 2018 года. К этой договоренности стран ОПЕК и не членов ОПЕК подключился и Азербайджан.

## Компания Azercell наградила стипендией еще 25 студентов



Стали известны победители Стипендиальной Программы 2017, объявленной лидером рынка сотовой связи Azercell Telecom. В программе, где было принято свыше 1200 заявок, были отобраны 25 студентов, получив почетное звание Стипендиата Azercell. Стипендиальная Программа, в которой победили студенты, обучающиеся в Бакинском Государственном Университете, Азербайджанском Государственном Экономическом Университете, Бакинском Инженерном Университете, Мингячевирском Государственном Университете, Университете АДА, Нахчыванском Государственном Университете, Гянджинском Государственном Университете, Азербайджанском Государственном Аграрном Университете и Азербайджанском Техническом Университете, была объявлена 15 сентября. Молодежь, желающая стать профессионалом в своей области и создать основу для дальнейшей карьеры, получила возможность подключиться к стипендиальной программе. Цель программы заключается в проявлении особой заботы в отношении способных студентов, добивающихся успехов в учебе, оказании поддержки молодежи с высоким потенциалом в дальнейшем формировании их профессиональных компетенций. Способные студенты, принятые в программу, будут получать стипендию, установленную компанией, до конца текущего учебного периода. Помимо этого, данным студентам будут созданы все условия для развития их карьеры. Так, они получат возможность расширить свои знания в области телекоммуникаций, принять участие в корпоративных мероприятиях и социальной деятельности компании, а также в разных тренингах и пройти стажировку в компании.

Таким образом, из 25 студентов, получивших звание стипендианта Azercell в 2017-ом году 7 человек являются студентами региональных учебных заведений, 9 бакинских высших учебных заведений и 9 студентами граупп SABAH.

Церемония награждения состоялась 9 января в головном офисе компании Azercell. Президент Azercell Вахид Мурсалиев и руководитель Исполнительного Комитета групп SABAH Шахин Сеидзаде поздравили победителей и вручили им сертификаты и подарки.

Компания Azercell представляет Студенческую Стипендиальную Программу каждый учебный год, начиная с 2008 года. До настоящего времени свыше 150 студентов, обучающихся в разных университетах Азербайджана, были удостоены звания почетного стипендиата компании.

## Общение посредством искусства: «Bakcell Stars» предоставляет равные права и возможности детям, нуждающимся в особой заботе

Одним из основных направлений программы Корпоративной Социальной Ответственности (КСО) компании Bakcell - первого оператора мобильной связи и ведущего провайдера мобильного интернета в Азербайджане, является обеспечение равных прав и возможностей для детей, нуждающихся в особой заботе, эффективная организация их свободного времени и предоставление помощи для их полноценной интеграции в общество.

Подошел к концу проект под названием «Общение посредством искусства», являющийся одним из многих проектов осуществляемых в рамках долгосрочного и успешного сотрудничества между компанией Bakcell и организацией «United Aid for Azerbaijan» (UAFA). С начала 2017 года, в общественных реабилитационных центрах UAFA расположенных в Хачмазе, Гяндже и Ясамальском районе Баку, были организованы такие кружки как драма, танцы, рисование и творчество. За время проекта, более 150 детей, нуждающихся в особой заботе, приобрели полезные навыки и смогли продемонстрировать их посещая различные мероприятия, еще раз доказав этим что являются активными и равноправными членами общества.

Координатор родительского объединения ясамальского реабилитационного центра UAFA Захра Халафова рассказала, что за время осуществления проекта услугами центра воспользовалось 75 детей: «Участие детей в проекте «Волшебная Палочка», организованного Музеем Современного Искусства, является одной из наших многочисленных побед. Рисунки детей, прошедших обучение в кружках по рисованию и искусству реабилитационных центров Гянджи и Ясамала, будут представлены в специальной книге».

Кроме того, совместно с детской студией «Oyuq» при Азербайджанском государственном кукольном театре имени Абдуллы Шаига был представлен спектакль «Волшебный мир», в котором также приняли участие дети из драматических и танцевальных кружков, а также кружков по рисованию. А 3 декабря дети выступили с танцевальной программой на мероприятии организованном Исполнительной властью Сабаильского района и ЗАО «Азербайджанское Каспийское Морское Пароходство» по случаю «Международного дня инвалидов». Все эти достижения приносят положительные и запоминающиеся перемены в жизни детей и их семей.

Около 60 детей посещают такие кружки как «Народное творчество и искусство» и «Умелые руки» в общественных реабилитационных центрах UAFA расположенных в Хачмазе и Гяндже. В рамках проекта, дети не раз получали возможность выступить на различных мероприятиях, демонстрируя свои пьесы и танцы, читая стихи и исполняя песни. Благодаря этим кружкам, дети сделали свои первые шаги на большой сцене, используя инвалидные коляски и другое специальное оборудование, и смогли интегрироваться в общество с малых лет. Кружки также помогли детям познать основы культуры речи, поведения на сцене, походки, манеры говорить, пластических движений на сцене и музыкального слуха. Более того, дети научились использовать фрагменты тканей для изготовления различных сенсорных игрушек для использования в реабилитационном центре, а также рисовать и изготавливать ручные изделия. «Мы уверены в том, что эти дети являются полноценными членами нашего общества и очень важно, чтобы они верили в себя и были подготовлены к самостоятельной жизни. Благодаря проекту «Bakcell Stars», для детей создаются дополнительные возможности, чтобы они с еще большей уверенностью шагали в будущее, чувствуя себя неотъемлемой частью общества. Мы очень благодарны родителям детей и организации UAFA за то, что они предоставили нам возможность оказать детям поддержку, и мы надеемся, что наше успешное сотрудничество в этом направлении будет продолжено», говорит руководитель департамента по связям с общественностью и корпоративным коммуникациям компании Bakcell Сухейла Джафарова.

С 2010 года компания Bakcell оказывает непрерывную поддержку детям, нуждающимся в особой заботе, которые обучаются в общественных реабилитационных центрах UAFA. Своей поддержкой, Bakcell старается обеспечить равные права и возможности для этих детей, а также помочь им полностью интегрироваться в общество и эффективно проводить свое свободное время. Этот проект помогает детям и их родителям стать более активными в общественном плане, обзавестись новыми друзьями, находиться в общении с самыми разными людьми, что в свою очередь позволит поменять отношение общества к детям с ограниченными возможностями и инвалидности в целом.

## 2017-ci ildə Ukraynaya idxal olunan xam neftin 85,2 faizi Azərbaycanın payına düşüb



2017-ci ildə Ukrayna 442,2 milyon dollar dəyərində xam neft və qaz kondensatı idxal edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur.
Ukrayna Dövlət Maliyyə Xidmətinin yaydığı hesabata istinadla bildirilir ki, idxal həyata keçirilən ölkələr arasında Azərbaycan birinci yerdədir. 2017-ci ildə əsas neft ehtiyatları Azərbaycandan (85,2 faiz) – 376,8 milyon dollar dəyərində idxal edilib. Birinci üçlüyə İran (8,5 faiz, 37,7 milyon dollar) və Qazaxıstan (3,9 faiz, 17,5 milyon dollar) daxildir. Digər ölkələrdən Ukraynaya 10 milyon dollar dəyərində xam neft idxal edilib.
Qeyd edək ki, 2016-cı ildə Ukraynaya xam neftin idxalı 173,8 milyon dollar dəyərində olub. Bu da 2015-ci ildəkindən 2,1 dəfə çoxdur.

## İndiyədək 10 xarici ölkəyə 13 ixrac missiyası həyata keçirilib

İndiyədək Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən 10 xarici ölkəyə - Almaniya, Əfqanıstan, Pakistan, Qətər, Qazaxıstan, Macarıstan, Çin, Rusiya, Birləşmiş Ərəb Əmirliyi və Səudiyyə Ərəbistanına 13 ixrac missiyası təşkil olunub.
Ötən il "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə 5 beynəlxalq sərgidə - "Gulfood 2017", "Prowein", "ANUGA", "Worldfood Moscow 2017" və "Honqkonq Beynəlxalq Şərab və Spirtli İçkilər Sərgisi"ndə ölkə sahibkarları vahid stendlə iştirak ediblər. Bu cür missiyalarda sahibkarlar öz potensiallarını nümayiş etdirmək imkanı da




qazanırlar. Sahibkarlar rəqabətqabiliyyətli və ixracyönümlü məhsullarımız, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə həyata keçirilən tədbirlər barədə məlumat verir və əməkdaşlıq imkanlarını müzakirə edirlər.
Qeyd edək ki, bu il oktyabrın 21-də Parisdə keçiriləcək "SIAL Paris - Qida məhsulları sahəsində biznesin təşviqi" adlı sərgidə Azərbaycanın qida məhsulları da sərgilənəcək. Həmçinin, yanvarın 30-da Tehranda yemək sənayesi və yuyucu vasitələr, sanitariya, kosmetika, sellüloz sənayesi və onunla əlaqəli olan sənaye sahələrinin ilk ixtisaslaşdırılmış beynəlxalq sərgisində də Azərbaycan nümayəndə heyəti təmsil olunacaq. Bu il "Made in Azerbaijan" brendi altında yerli məhsulların xarici ölkələrdə təşviqi istiqamətində bir sıra missiyaların və sərginin təşkili nəzərdə tutulub. Bununla bağlı Tədbirlər Planı hazırlanıb.

## PROKON şirkəti "SOCAR Polymer" üçün anbar tikintisini başa çatdırıb

PROKON şirkəti "SOCAR Polymer" üçün Polipropilen/Yüksək sıxlıqlı polietilen istehsalı layihəsi çərçivəsində son məhsul anbarının mühəndis-layihələndirmə, təchizat və tikinti işlərini uğurla bitirib.
Sumqayıtda Polipropilen və Yüksək sıxlıqlı polietilen istehsalı zavodunun şərq hissəsində yerləşən son məhsul anbarı ölçüsü 84 x 176 m və daxili minimum hündürlüyü 6 m olmaqla istehsal olunmuş hazır məhsulların saxlanılması üçün nəzərdə tutulub. Bu layihəyə 2016-cı ilin avqust ayında başlanılıb və layihə mühəndis-layihələndirmə, təchizat, tikinti, metal konstruksiyaların hazırlanması və quraşdırılması, habelə yerli hakimiyyət orqanlarından müvafiq icazələrin alınmasını əhatə edib. Layihə üzrə aparılmış işlər çərçivəsində PROKON şirkəti mühəndislik, torpaq işləri, söküntü işləri, suyun kənarlaşdırılması və qoruyucu maneələrin quraşdırılması kimi işləri özündə ehtiva edən tikinti meydançasının hazırlanması, mülki-tikinti və torpaq işləri mərhələlərini uğurla bitirib.
PROKON şirkəti "SOCAR Polymer" son məhsul anbarının tikintisi çərçivəsində zaman və əmək qabiliyyəti itkisi (LTİ) olmadan 350.000-dən artıq işçi-saat sərf etməklə layihənin icrasına öz töhfəsini verib. Rəhbərlik tərəfindən qoyulmuş dəqiq təlimatlar, layihəyə cəlb edilmiş mütəxəssislərin təhlükəsizlik mədəniyyətinə və qızıl təhlükəsizlik qaydalarına sadiqliyi bu nailiyyətin əldə olunmasını mümkün edib.
PROKON Nobel Oil Services şirkətinin tikinti və layihələrin idarə olunması üzrə törəmə müəssisəsi kimi 2012-ci ildə fəaliyyətə başlayıb. PROKON şirkəti tezliklə yerli bazarda iri-miqyaslı "daunstrim" obyektləri tikib istismara vermək imkanlarına malik aparıcı tikinti şirkətlərindən birinə çevrilib. PROKON-nun ən son iştirak etdiyi layihələr sırasına SOCAR Karbamid zavodun tikintisi, rezervuarların quraşdırılması və sair işlər daxildir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

## Arıçılıq Azərbaycana valyuta gətirən sahəyə çevrilir

Azərbaycanda arıçılıq ta qədimdən inkişaf etmiş və kənd təsərrüfatının ən ekoloji təhlükəsiz növlərindən biri olmuşdur. Hazırda qida məhsullarının təhlükəsizliyinin qlobal məna daşıdığı bir dövrdə bütün dünyada arıçılığın inkişafına xüsusi diqqət yetirilir.
Dünyanın bütün dinlərində arı insanlara xeyir gətirən və əməksevərlik, məhsuldarlıq simvolu olan müqəddəs həşərat kimi qəbul edilib. Müqəddəs Qurani-Kərimdə deyilir:
***"Rəbbin bal arısına belə təlqin etdi: Dağlarda, ağaclarda və (insanların) düzəltdikləri çardaqlarda özünə pətəklər hör.***
***Sonra bütün meyvələrdən ye və Rəbbinin (səndən ötrü) asanlaşdırdığı yollarla get. (O arıların) qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl Surəsi, 68-69)".***
Azərbaycanın təbii şəraiti arıçılığın inkişafı üçün zəmin yaradır. Sovet dövründə bu sahədə 10 min nəfərə yaxın insan məşğul olmuş, kolxozların çoxunda iri arıxanalarda 300-450 min arı ailəsi var idi, 10 ixtisaslaşdırılmış arıçılıq sovxozu və Lənkəranda Ümumittifaq Arıçılıq Mərkəzi fəaliyyət göstərirdi.
Son illərdə Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatının rolu əhəmiyyətli dərəcədə artıb. Bu, həmçinin ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd əhalisinin məşğulluğunun və gəlirlərinin artmasına da müsbət təsir göstərmişdir. Kənd təsərrüfatı naziri Heydər Əsədov BP ilə birgə Azərbaycanda arıçılığın inkişafına dəstəyə həsr olunmuş tədbirdə demişdir ki, Kənd Təsərrüfatı Nazirliyi arıçılığın inkişafı üzrə yeni təkliflər hazırlayıb. Nazirin sözlərinə görə, bu təkliflər baxılması üçün Azərbaycan hökumətinə təqdim ediləcək.
Hazırda başlıca vəzifə arıçılıq məhsullarının artırılması və onun dünya bazarına çıxarılmasıdır. Son tədqiqatlar göstərir ki, arıçılıq məhsullarına həm Azərbaycanın daxilində, həm də onun hüdudlarından kənarda böyük tələbat mövcuddur.
İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Statistika Komitəsi və kütləvi informasiya vasitələri ölkəmizdə arıçılığın inkişafı haqqında belə bir məlumat yaymışlar: Azərbaycan Respublikasının "Arıçılıq haqqında" Qanunu (2 fevral 2009-cu il) qəbul edildikdən sonra 8 il ərzində Azərbaycan arıçılığı xeyli uğurlar qazanmışdır. Demək olar ki, arı ailələrinin sayı iki dəfə artmış, orta arıçılıq təsərrüfatlarında arı ailələrinin sayı artmışdır. Arıçılara istehsalın inkişafı və arıçılıq məhsullarının emalı üçün güzəştli kreditlərin verilməsi də artıb. Belə ki, 400 arıçıya 4,7 mln. manat məbləğində kredit verilmişdir.
Azərbaycanda arıçılığın inkişaf vektorunu müəyyənləşdirmək məqsədilə 2017-ci ilin əvvəllərində 20 min arı ailəsini əhatə edən arıçılıq təsərrüfatları araşdırılmışdır. Aparılan tədqiqat nəticəsində aydın olmuşdur ki, bu arı ailələrinin 95%-i kəndli və ev təsərrüfatlarında cəmləşmiş, 2016-cı ildə əvvəlki illə müqayisədə arı ailələrinin sayı 21,8% artmış, qış fəslində arı ailələrinin tələf olması 7,1% azalmış, orta arı ailəsi tərəfindən əmtəəlik bal istehsalı 2016-cı ildə 10,2 təşkil etmişdir. Bütün bu irəliləyişlərə baxmayaraq, Azərbaycanda arıçılıq məhsulları istehsalı hələ ki, bu məhsula olan tələbatın yalnız 60%-ni ödəyir. Arıçılıq təsərrüfatlarının rəhbərləri sahənin gələcək inkişafı üçün dövlət tərəfindən güzəştli kreditlərin verilməsi, ölkəmizdə damazlıq arıçılıq təsərrüfatlarının yaradılması, müntəzəm olaraq bal satışı yarmarkalarının keçirilməsi, satışa çıxarılmış balın qablaşdırılması və keyfiyyətinin yoxlanması kimi təkliflər irəli sürmüşlər. İqtisadiyyat Nazirliyindən bildirilmişdir ki, arıçılıq sahəsinin inkişaf strategiyası, ilk növbədə balın idxalını daxili istehsalla əvəzləməyə, həmçinin Azərbaycan balının ixracının artması üçün bir sıra tədbirlərin keçirilməsinə yönəldilmişdir.
**Qeyd edək ki, 2016-cı ildə Azərbaycanda 3 min ton bal istehsal edilmiş, onun 6 tonu Yaponiya bazarına ixrac edilmişdir. Azərbaycan balının hazırda Birləşmiş Ərəb Əmirliklərinə də ixracı haqqında danışıqlar gedir.**



Son vaxtlar şəhərimizin marketlərində Qinyət Oğulları ticarət markası altında müxtəlif arıçılıq məhsulları satılır. Həqiqətən, təbii bal olduğunun şahidi olduqdan sonra qərara gəldik ki, təsərrüfatın fəaliyyəti ilə yaxından tanış olaq. Qinyət Oğullarının rəhbəri Bakıda olarkən fürsətdən istifadə edib onunla görüşdük. Müsahibim sahibkar Lətif Lətifovdur.
Qısa arayış: Lətif Qinyət oğlu Lətifov. 1963-cü ildə Şəki rayonu Baş Küngüt kəndində anadan olmuşdur. Ali təhsilinin ilk 3 ilini Bakı Dövlət Universitetində almış, daha sonra Moskva Dövlət Universitetinə göndərilmişdir. 1990-cı ildə Moskva Dövlət Universitetinin Kimya fakültəsini bitirmişdir. Bakıya qayıdıb beş il Azərbaycan Milli Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunda işləmişdir. 1995-ci ildən arıçılıqla məşğuldur.
**- Lətif müəllim, necə oldu ki, arıçılıqla məşğul olmağa başladınız?**
- Əvvəla, onu deyim ki, hələ mənim atam Qinyət kişi 1975-ci ildən arı saxlamağa başlamışdı. Demək olar ki, ömrünün qalan hissəsini arılara həsr etmişdi. Arıxanalarımız şimal-qərb bölgəsinin müxtəlif ərazilərində yerləşir. 90-cı illərin ortalarında arıçılığı genişləndirdik, arıların sayını çoxaltdıq. 1998-ci ildə Qinyət Oğulları kimi fəaliyyətə başladıq. Mən həvəskar arıçı kimi işə başlayanda cəmi 20 arı pətəyimiz vardısa, hazırda mindən çox arı pətəyimiz var. Ailəmizin bütün üzvləri bu işə cəlb edilib. 1998-ci ildən Qinyət Oğulları adı altında ticarət markası olduq. İndi bizim məhsulları Bakının, Sumqayıtın, Gəncənin, Mingəçevirin supermarketlərində görə bilərsiniz. Məhsullarımız Bravo market, Bazarstore, Araz market, Favorit market, Qrand market, Rahat market, Bizim market, Sərham market, Makro market və s. marketlərdə müştərilərə təqdim olunur.
**- Hər il nə qədər bal götürürsünüz?**
- Bizim işimiz təbiətdən asılıdır. Hər ilin, hər fəslin öz hökmü var. Biz təbiətdə olan balı yığırıq. Təbiət hansı növ bal yığmağa şərait yaradırsa, bizdə də həmin növ bal olur. Məhsullarımız yaz balı, cökə, barınc və dağ balıdır. Baldan başqa arı südü, çiçək tozu və vərəmum da istehsal edirik. Qaldı ki, hər il nə qədər bal götürürük - bu rəqəm həmişə fərqli olub. Məsələn, ən çox 22 ton məhsul yığmışıq, elə illər də olub ki, 9 ton, 18 ton bal götürmüşük.
**- Yəqin ki, məhsulun az yığılmasının da bir səbəbi var...**
- Bəli, çox vaxt bunun səbəbi bitkilərə, meyvə bağlarına, bostanlara, xüsusilə də, taxıl əkilən sahələrə məhsulları zərərvericilərdən qorumaq üçün dərmanların, kimyəvi maddələrin vurulmasıdır. Məsələn, bu səbəbdən şirkətimiz 2009-cu ildə məhsul yığa bilmədi, demək olar ki, həmin il biz müflis olmuşduq.
**- Lətif müəllim, arıçılığın böyük zəhmət, bununla belə** gəlir gətirən sahə olduğu məlumdur. Kənardan elə mənzərə yaranır ki, bu sahəyə o qədər də kapital qoymaq lazım deyil.
- Hər bir sahədə olduğu kimi, arıçılıq da, düz qeyd etdiniz, böyük zəhmət tələb edən və gəlir verən sahədir. Təsərrüfat yarandığı ilk gündən hər şeyi öz ailəmizin gücünə etsək də, 2015-ci ildə Sahibkarlığa Kömək Milli Fondundan 15 000 AZN kredit götürdük. Bunun təsərrüfatımıza böyük köməyi oldu.
**- Qablaşdırma və daşınmanı necə həyata keçirirsiniz?**
- Qablaşdırma üçün 30, 140, 300, 470, 900 qramlıq bankalardan istifadə edirik. Bankaları İrandan, qapaqları Rusiyadan alırıq. Etiketlər Bakıda hazırlanır. Arıçılıq məhsulları Şəkidə qablaşdırılır, markalanır, Azərbaycanın digər rayonlarına və paytaxtımıza göndərilir.
**- Bəs, çətinlikləriniz necə, varmı, onları necə həll edirsiniz?**
- Çətinlik ondan ibarətdir ki, Azərbaycanda arıçılıq məktəbi yoxdur, gənc arıçı kadrlara böyük ehtiyac var. Şəxsən mən həm də bir müəllim kimi, gənclərimizi öyrədirəm, amma məktəb olsaydı daha yaxşı olardı. Hazırda bizim kənddə 3 000 arı pətəyi var. Bacarıqlı kadrlarla gördüyümüz işin də keyfiyyəti, təbii ki, yüksək olur. Bir də qeyd etmək istərdim ki, son vaxtlar arıçılıqda rəqabət güclənir. Əslində bu, çətinlik yox, keyfiyyət yarışıdır. Biz bacardığımızı edirik ki, Qinyət Oğulları arıçılıq məhsulları yerli bazarda lider olaraq qalsın.
Onu da deyim ki, Qinyət Oğulları təsərrüfatı olaraq biz həmişə öz adımızı qorumağa çalışırıq. Məhsullarımızın keyfiyyətindən əmin olduqdan sonra onları satışa çıxarırıq. Əminliklə deyə bilərəm ki, balımız tam təbiidir və biz öz məhsullarımızı özümüz satırıq. Bal süzmə prosesini tam olaraq təkmilləşdirmişik, bal insan əli dəymədən süzülür. Avadanlıq ABŞ-dan gətirilmişdir. Bu işləri tam gigiyenik şəraitdə görürük.
**- Bəs, ixrac haqqında heç düşünmüsünüzmü?**
- Əlbəttə, fəxrlə deyə bilərəm ki, keçən 2017-ci ilin dekabr ayında Yaponiyaya məhsul ixrac etmişik. Bu, bizim təsərrüfat üçün böyük hadisədir. Gələcəkdə başqa ölkələrə də ixracı genişləndirməyi hədəfləyirik.
**- Maraqlı müsahibəyə görə sağ olun, işiniz avand olsun. Yeni ildə yeni uğurlar arzulayırıq.**

**Hazırladı:**
**Yeganə MƏMMƏDOVA**

# MÜƏSSİSƏDƏ İNSAN KAPİTALININ FORMALAŞDIRILMASINDA YENİLİK İDEYASI AXTARIŞININ ROLU

Keçən əsrin son üç onilliyindən indiyədək cəmiyyətdə çox sürətli inkişaf getmişdir. Bunun əsasını isə yüksək intellekt səviyyəsinə malik olan insanların insan fəaliyyətinin müxtəlif sahələrində, xüsusi halda istehsalda yeniliklər üzrə apardıqları təkmilləşmə, mükəmməlləşmə, yaxşılaşdırma işlərinin həyata keçirilməsi təşkil edir.

Başqa sözlə, qeyd edilən dəyişikliklərin aparıcı qüvvəsi insan kapitalıdır, yeniləşmə üzrə aparılan dəyişikliklər isə innovasiyayönümlü inkişafı müəyyən edir.

İnsan kapitalı – bu, təkcə insanın malik olduğu elmin, qabiliyyətin, davranışın, bacarığın toplusunun mexaniki daşıyıcısı deyildir. Qeyd edilənlərə malik olan insanlar onları istehsal sahələrində yeniliklərin yaradılmasına tətbiq etmək qabiliyyəti tələblərinə cavab verdikdən sonra insan kapitalı hesab edilir.

Deməli, insan kapitalı innovasiya fəaliyyətinin həyata keçirilməsinin əsas aparıcı qüvvəsidir ki, dünya ölkələrində onun formalaşdırılmasına xüsusi diqqət yetirilir. Bu sahədə ölkəmizdə də geniş işlər aparılmaqdadır.

İnsan kapitalının formalaşdırılmasına qoyulan ən əsas tələb onun yenilik ideyasını mənimsəməsi və həyata keçirməsidir. Bu isə birbaşa innovasiya fəaliyyətinin gücləndirilməsinə təsir edir. Bəs, innovasiya ideyası necə axtarılmalıdır? Burada biz bu məsələni müəssisədə innovasiya fəaliyyətinin gücləndirilməsi ilə əlaqədar açıqlamağa çalışacağıq.

Alimlər yeniliyin yaranması səbəblərini müəyyən etməyə çalışmışlar. Nəticədə, bunu izah etmək üçün müxtəlif nəzəriyyələr yaranmışdır. Bu nəzəriyyələr elmdə gedən dəyişikliklərlə, gözlənilməz hadisələrlə və s. ilə əlaqədar yaranmışdır.

Ən əsas nəzəriyyə yeniliyin axtarışının bazar tələbatının ödənilməsinə yönəldilməsidir. Bu nəzəriyyə tərəfdarları yalnız yeni biliklərin motivləşdirilməsini əsas hesab edirlər. Onlar izah etmirlər ki, elmi axtarışlar necə yaranır və innovasiya məhsuluna necə çevrilir.

İnnovasiyanın baş verməsinin, başqa sözlə, innovasiya prosesinin həyata keçirilməsinin ilkin mərhələsi olan yenilik ideyasının axtarışının ən əsas səbəblərindən biri bazardır ki, bu da tələb, təklif, qiymət, rəqabət və istehlakçılar uğrunda mübarizə oyunları meydanıdır. Bunlardan ən əsasları "tələbin ağırlığı", "təklifin ağırlığı", "hadisələrin gözlənilməz dönməsi", "prosesə tələbat", "demoqrafik dəyişiklik", "dərketmədə dəyişiklik", "yeni elm" nəzəriyyələridir.

Qeyd edilən səbəblər müəssisədən kənarda baş verdiyi üçün müəssisədə innovasiya ideyası axtarışının "passiv" forması adlandırıla bilər. İnnovasiya ideyası axtarışının "aktiv" formalarından biri olan müəssisədə istehsal edilən məhsul xərclərinin funksional təyinatına görə qruplaşdırılmasına əsaslanan işlənilmə tərəfimizdən hazırlanmışdır və tətbiq edilmişdir. İşlənilmiş innovasiya ideyasının axtarışı metodunu izah etməmişdən əvvəl bəzi məsələlərə aydınlıq gətirək.

Yuxarıda qeyd etdiyimiz kimi, müəssisədə də hər bir yenilik (innovasiya) axtarışı məlum məqsədə nail olmağa xidmət etməlidir. Məqsəd isə müəssisədə aparılan innovasiya tədqiqatlarının əsas meyar göstəricisi ilə əlaqədar olmalıdır. Müəssisədə aparılan tədqiqatlar son nəticədə maya dəyərinin aşağı salınması, istehsalda vahid xammal və materialdan məhsul çıxımının artırılması, ekoloji göstəricilərin yaxşılaşdırılması, istehsalın ahəngdarlığının və təhlükəsizliyinin təmin edilməsi və bu kimi meyarlar əsasında həyata keçirilməlidir.

Kimya istehsalının timsalında tədqiqat obyekti istehsal qəbul edilərsə, onda tədqiqat istiqamətləri və onların nəticələri haqqında fraqment cədvəl 1-də verilmişdir.

**Cədvəl 1.**

**Tədqiqatın obyekti, istiqaməti, meyarı və müəyyən edilmiş nəticə**

| Obyekti | Tədqiqatın predmeti (istiqaməti) | Əsas meyar | Səmərəliliyi |
|---|---|---|---|
| İstehsal | Məhsulun enerji tutumluluğunun azaldılması | Vahid məhsula çəkilən enerji xərcinin minimumlaşdırılması | Enerji xərcinin aşağı salınması hesabına alınan iqtisadi səmərə |
| | Məhsulun material tutumluluğunun aşağı salınması | Vahid məhsulun xammal və materialına çəkilən xərcin minimumlaşdırılması | Xammal material xərclərinin aşağı salınması hesabına alınan iqtisadi səmərə |
| | İstehsalın çoxmərhələli prosesdən azmərhələli prosesə keçilməsi | İstehsal mərhələlərinin azaldılması | Məhsulun fond tutumluluğunun aşağı salınması hesabına alınan iqtisadi səmərə |
| | Vaxt vahidi ərzində məhsul çıxımının artırılması | Məhsul çıxımının maksimumlaşdırılması | Mənfəətin artımı hesabına alınan səmərə |
| | Məhsulun maya dəyərinin aşağı salınması | Məhsulun maya dəyərinin minimumlaşdırılması | Mənfəətin artırılması hesabına alınan iqtisadi səmərə |
| | Baha və xaricdən gətirilən istehsalda istifadə edilən xammal və materialların yerli materiallarla əvəz edilməsi | Yerli xammal və materialdan istifadə əsasında xərclərin aşağı salınması | Xərclərin aşağı salınması hesabına alınan səmərə |

Qeyd edək ki, cədvəl 1-də verilmiş istehsalla bağlı aparılan tədqiqat istiqamətləri tam əhatə edilməmişdir.

Müəssisələrin fəaliyyəti təcrübəsindən məlumdur ki, müəssisədə aparılan tədqiqatların içərisində ən əsas diqqət yetiriləcək istiqamət məhsulun maya dəyərinin aşağı salınmasıdır. Odur ki, müəssisədə məhsulun maya dəyərinin aşağı salınması mütəmadi olaraq diqqət mərkəzində olmalıdır.

Deməli, maya dəyərinin aşağı salınması üzrə ideya axtarışı müəssisədə ən əsas yerlərdən birini tutur.

Bu sahədə uzun illər apardığımız tədqiqatlara əsaslanaraq müəyyən etmişik ki, müəssisədə maya dəyərinin hesablanması üçün xərclərin iqtisadi təyinatına görə qruplaşdırılması, başqa sözlə, məhsulun maya dəyərinin kalkulyasiya xərc maddələri üzrə hesablanması onun aşağı salınması yollarının axtarışına lazımi səviyyədə cavab vermir. Fikrimizcə, müəssisədə istehsalla bağlı olan xərclərin aşağı salınması ideyası axtarılır və bunun üçün maya dəyərinin hesablanmasının funksional təyinat xərcləri üzrə aparılması daha geniş imkanlar yaradır. Bu, ondan irəli gəlir ki, maya dəyərinə daxil olan funksional əməliyyat xərclərinin aşağı salınmasına müəssisənin bütün mühəndis-texniki işçiləri cəlb edilə bilir.

Yenilik ideyası axtarışı üzrə işin belə təşkili ikinci bir tərəfdən müəssisədə insan kapitalının formalaşdırılmasına ciddi təsir göstərir. Yəni, yenilik ideyası axtarışı onların bu sahədə təfəkkürünü gücləndirir.

Dünyanın qabaqcıl firmaları öz işçilərinin iş fəaliyyətində yenilik ideyası axtarışının fəallaşdırılmasına xüsusi diqqət verirlər və bu sahədə geniş motivləşdirmə mexanizmi tətbiq edirlər. Buna misal olaraq, dünyanın əksər ölkələrində 100-lərlə filialları və 100 mindən artıq işçisi olan "Sony" transmilli korporasiyasında orta hesabla il ərzində hər bir işçiyə 7-yə yaxın səmərələşdirmə təklifi düşür.

Bunun əsas səbəbi müəssisədə yenilik ideyası axtarışı üzrə dərnəklərin təşkili və hər ay yenilik ideyaları müsabiqələrinin aparılmasıdır. Müsabiqəyə təqdim edilən yenilik ideyaları güclü ekspertlər tərəfindən qiymətləndirilir, birinci üç yeri tutan işin müəllifləri mükafatlandırılır və onlar ideyanın həyata keçirilməsi işinə rəhbər təyin edilir. Hətta müsabiqədə sonuncu yeri tutanın həvəsdən düşməməsi üçün o da mükafatlandırılır və növbəti müsabiqələrdə qalib gələ biləcək bir şəxs kimi qiymətləndirilir. "Sony" korporasiyasının bu təcrübəsi ölkəmizin müəssisələrində tətbiq edilərsə, çox yüksək səmərəyə nail oluna bilər. Bizim verdiyimiz təkliflə "Sony" firmasında yenilik ideyası axtarışı işinin fərqi ondadır ki, biz yenilik ideyasının axtarılması obyektini konkret olaraq veririk, amma "Sony" firmasında yenilik ideyası axtarışı obyekti konkret olaraq verilmir. İkinci bir tərəfdən biz tam əminik ki, təklif etdiyimiz obyekt üzrə kifayət qədər yenilik ideyası vardır. Burada müəssisədə istehsal xərclərinin aşağı salınması obyekti olan maya dəyərinin funksional xərc maddələri üzrə hesablanması qaydasını verək. İşin ümumi gedişinin məntiqi ardıcıllığı aşağıdakı mərhələlərdən ibarətdir:

- istehsal mərhələlərinin müəyyən edilməsi;
- istehsal mərhələlərində aparılan əməliyyatlar üzrə xərclərin qruplaşdırılması;
- kalkulyasiya xərc maddələrilə funksional əməliyyat xərclərinin əlaqələndirilməsi;
- maya dəyərində funksional əməliyyat xərclərinin xüsusi çəkisinin müəyyən edilməsi;
- maya dəyərində xüsusi çəkisi yüksək olan funksional əməliyyat xərclərinin seçilməsi;
- bu xərclər üzrə mühəndislərin, texnoloqların və digər mütəxəssislərin birgə tədqiqatlarının aparılması;
- tədqiqat nəticəsində funksional əməliyyat xərclərinin aşağı salınması ideyasının müəyyən edilməsi;
- ideyanın həyata keçirilməsi nəticəsində alınan iqtisadi səmərənin müəyyən edilməsi.

Alınmış ideyaların tətbiqinin nəzəri səmərəliliyinə görə, onlar ranje edilməli və müəssisənin imkanları daxilində ranje edilmiş ardıcıllıqlarla həyata keçirilməlidir.

Burada tərəfimizdən təklif olunan ideya vaxtilə Azərbaycan Boruyayma zavodunda 2 saylı sexdə istehsal olunan məhsulların maya dəyərinin aşağı salınmasında tətbiq edilmişdir və nəticədə yüksək səmərəyə nail olunmuşdur.

Beləliklə, müəssisə əməkdaşlarının yenilik ideyası axtarışına cəlb edilməsi onların insan kapitalına çevrilməsi prosesinə, başqa sözlə, insan kapitalı kimi formalaşdırılmasına ciddi təsir göstərə bilər.

**Albert Tağıyev,**
**Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki**

# "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində gömrük bəyannaməsi də doldurulacaq




"Bir Pəncərə" İxraca Dəstək Mərkəzində ilk dəfə olaraq ixracatçı sahibkarlar üçün gömrük bəyannamələrinin doldurulması xidməti göstəriləcək.

Bu barədə məlumat verən "Bir Pəncərə"nin meneceri Nicat Hacızadə bildirib ki, artıq "Azərterminal-kompleks" Birliyinin əməkdaşı "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində sahibkarlarlara kömək məqsədilə gömrük bəyannamələrinin doldurulmasına başlayıb. Faktiki olaraq gömrük bəyannaməsinin doldurulması üçün həm off-line, həm də on-line imkan yaradılıb. Hazırda gömrük bəyannaməsini həm "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində, həm də on-line qaydada Rəqəmsal Ticarət Qovşağının (https://dth.azexport.az/) üzərindən doldurmaq mümkündür. Belə ki, Rəqəmsal Ticarət Qovşağında vahid ixrac ərizəsi, o cümlədən gömrük bəyannaməsinin doldurulması on-line qəbul edilir.

N.Hacızadə bildirib ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində 5 dövlət qurumu 7 dövlət xidməti (o cümlədən, mənşə, baytarlıq, fitosanitar, keyfiyyət və s. icazələrin verilməsi xidməti) göstərir: "Hazırda Elektron gömrük bəyannamələrinin doldurulmasının da "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində həyata keçirilməsi sahibkarların işini xeyli asanlaşdırır. Çünki sahibkarlar vahid məkanda ixracat üçün bütün prosedurları ən qısa bir müddətdə və daha az resurs sərf etməklə əldə edirlər. Faktiki olaraq bu islahat tədbiri Dünya Bankının "Doing Business" komandasının radarına da düşüb. Bir sıra beyəlxalq qurumların nümayəndələri "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində məlumat turlarında iştirak edərək fəaliyyətimizi yüksək qiymətləndiriblər. Dünya təcrübəsində bütün ixrac xidmətlərinin bir pəncərədən, həm on-line, həm də off-line göstərilməsi yaxşı nümunə sayılır."

N.Hacızadə ixracatla məşğul olan sahibkarları "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin imkanlarından daha geniş istifadə etməyə çağırıb: "İndiki halda gömrük bəyannamələrinin də "Bir Pəncərə" qaydasında doldurulması sahibkarlarımızın işini xeyli yüngülləşdirib. Faktiki olaraq "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Azexport portalı və Rəqəmsal Ticarət Qovşağı birlikdə bir ekosistem yaradaraq ixracatın təşviqinə xidmət edir."

# PAŞA Bank yerli bazarda növbəti ilkə imza atıb

Ölkənin aparıcı korporativ bankı PAŞA Bank biznes tərəfdaşları, o cümlədən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), Azercell Telekom, Azərbaycan Coca-Cola Bottlers Limited və Caspian Marine Services Limited ilə birgə Azərbaycan maliyyə bazarında növbəti ilkə imza ataraq, yeni texnoloji B2B (business-to-business) layihəsinə start verib.

Bu yeni məhsul sahibkarlıq fəaliyyətini həyata keçirənlər arasında aparılan kommersiya əməliyyatları üçün nəzərdə tutulan müasir rəqəmsal bir bank xidmətidir. Xidmətdən bəhrələnən PAŞA Bank müştərisi özünün Müəssisə Resurslarının Planlaşdırılması (Enterprise Resource Planning, ERP) sistemini xüsusi B2B kanalı vasitəsilə bank sistemi ilə inteqrasiya edir və digər alətlərdən (kağız daşıyıcısı, internet bankçılıq, mobil əlavə və s.) istifadə etmədən hesablaşmaları öz daxili sistemi vasitəsi ilə rahat və çevik şəkildə aparır.

B2B platformasından bəhrələnərək PAŞA Bank müştəriləri beynəlxalq və yerli hesablaşmalar, o cümlədən standart və təcili ödənişlər, vergi və ya digər büdcə ödənişləri, şirkətdaxili hesablaşmalar, valyuta mübadiləsi və s. əməliyyatları həyata keçirmək və təsdiqləmək, ödənişlərin statusunu yoxlamaq, müvafiq hesabatları almaq və bu xidmətdən istifadə qaydalarında nəzərdə tutulan digər bu kimi üstünlükləri əldə edirlər.

PAŞA Bankın İdarə Heyətinin Sədri Taleh Kazımovun sözlərinə görə, yerli bazarda bu yeniliyin təqdim edilməsi korporativ müştərilərimizlə daha rahat ünsiyyət qurmaq üçün geniş imkanlar açır.

"Bu layihənin reallaşdırılması Bankın dayanıqlı inkişaf prinsiplərinə və 2018-2020-ci illər üzrə İnkişaf Strategiyası çərçivəsində bankçılığın rəqəmsal modelinə keçid üzrə hədəflərinə tam uyğundur. Əminəm ki, bu yeni alət müştərilərlə qarşılıqlı əlaqələrimizi biznes-tərəfdaşlığının müasir formasının daha yüksək səviyyəsinə qaldıracaq", - deyə T.Kazımov fikrini yekunlaşdırdı.

Qeyd edək ki, PAŞA Bankla müştəriləri arasında aparılan hesablaşmaların təhlükəsizliyi elektron imza sertifikatları vasitəsilə təmin edilir. Bu istiqamətdə PAŞA Bank Mərkəzi Bankın Bank sertifikat xidmətləri mərkəzi və "ASAN İmza" ilə sıx əməkdaşlıq edir və Banka təqdim olunan bütün ödəniş tapşırıqları müştəri tərəfindən qeyd olunan elektron imzalar ilə təsdiqlənir.

# İran, Azərbaycan və Rusiya arasında regional enerji bazarı yaradıla bilər

"İran Azərbaycan və Rusiya ilə birlikdə enerji mübadiləsi üçün regional enerji bazarı yaratmaq niyyətindədir".

Bunu İranın energetika nazirinin beynəlxalq məsələlər üzrə müavini Əlirza Daimi deyib.

Ə.Daimi deyib ki, enerji istehsalı üçün yüksək potensial mövcuddur: "Buna görə də regional enerji bazarı yaratmağa çalışırıq. Regional enerji bazarı məsələsi hazırda Avropa ölkələri arasında mövcuddur. Mövcud vəziyyəti nəzərə alsaq, İran, Azərbaycan və Rusiya arasında da bu bazarı yaratmaq imkanları var".

Ə.Daimi deyib ki, İranla şimal, qərb və şərqdəki qonşu ölkələrlə yanaşı, Azərbaycanın elektrik şəbəkəsi də bir-birinə birləşdirilib: "Hazırda biz Azərbaycanla elektrik enerjisini qarşılıqlı mübadilə edirik. Əlbəttə, bu mübadilə quru sərhədlərimizin olduğu bütün qonşu ölkələrlə də həyata keçirilir".

O qeyd edib ki, hazırda İranın MAPNA şirkəti Azərbaycanla külək və günəş elektrik enerjisi stansiyalarının inkişaf etdirilməsi sahəsində əməkdaşlıq edir. Ə.Daimi əlavə edib ki, Azərbaycan və İran arasında sərhəd çayları üzərində elektrik stansiyalarının tikintisi və bəndlərin salınması sahəsində də əməkdaşlıq var: "Xudafərin və Qız Qalası su bəndlərinin idarəedilməsi sahəsində, eləcədə iki ölkənin sərhəd çayları və su mənbələrinin bölüşdürülməsi sahəsində ölkələrimiz arasında çox sıx və misilsiz əməkdaşlıq var. Azərbaycan və İran birgə işçi qrupu yaradıb. İşçi qrupu mütəmadi iclaslar keçirir və işlərin irəliləməsi üçün lazımi addımlar atır. Düşünürəm ki, İran və Azərbaycan arasında sərhəd çayları və su resursları sahəsində ən uğurlu əməkdaşlıq nümunəsi mövcuddur. İki ölkə arasında çox uğurlu və digər ölkələrə nümunə olacaq bir əməkdaşlıq mövcuddur".

# Reklam elanlarının bədii tərtibatı

Reklam elanlarında bədii tərtibat diqqətin cəlb edilməsinin əsas komponentidir.
Reklam elanlarının bədii tərtibatı imkan dairəsində onun məzmununa uyğun gəlməlidir. Firma rəmzlərinin əsas elementlərinin (əmtəə nişanı, firma bloku) ayrılması arzuolunandır.
Reklamın müxtəlif vasitələrinin bədii tərtibatının hazırlanması zamanı diqqət əsasən ona yönəldilir ki, təsvir və mətn hissəsi bütövlük təşkil etsin. Əgər mətn reklama məntiqi məzmun verirsə, bədii tərtibat emosionallıq verir.
**Reklam illüstrasiyaları.** Reklamın bədii tərtibatının müəyyən edilməsi zamanı başlıca cəhət əmtəədir. Reklam işçiləri alıcı üçün reklam olunan əmtəənin dəyəri haqqında dürüst təsəvvürə malik olmaqla bunu ən inandırıcı vasitələrlə ifadə etməlidir. Məsələn, tikiş maşınının reklamı zamanı, hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, bu maşın öz sahibinə hansı üstünlükləri verir (ailə üçün geyimin özünün tikilməsi imkanı, otağın bəzədilməsi, qənaət və s.). Bu dəlillərin isə tikiş maşınının texniki göstəriciləri ilə birbaşa əlaqəsi yoxdur, lakin daha çox alıcı üçün sərfəlidir. Bu səbəblərdən yalnız bir əmtəənin illüstrasiyası ilə reklam natamam olacaq, belə ki, ancaq insanların təsvir edilməsinin köməyilə reklam olunan əmtəənin üstünlüklərini alıcıya sübut etmək, eləcə də onsuz həyatın bütün narahatlıqlarını əks etdirmək olar.
İnsanların təsviri, adətən, illüstrasiyanı xeyli canlandırır. Xüsusilə, hərəkətdə olan insanları təsvir edən reklama maraq artır.
İllüstrasiya, bir qayda olaraq, mətnə böyük dramatiklik və ya sövqedici qüvvə vermək üçün tətbiq olunur. Lakin yaddan çıxarmaq lazım deyil ki, illüstrasiya ilə siz oxucunu əmtəəni almaq zərurətinə inandıran əlavə informasiyanı əldə etmək imkanından məhrum edirsiniz.



Şübhəsiz ki, illüstrasiya ilə reklam obyekti arasında hətta təcrübəsiz oxucunun belə asanlıqla başa düşəcəyi aşkar əlaqə mövcud olmalıdır.
Cəlbedici və ya cazibədar qadın üçün geyimi reklam edən zaman bu cazibəli qadını təsvir edən illüstrasiyaya müraciət etmək lazımdır.
Eyni zamanda, əmtəə və ya xidmətlə heç bir əlaqəsi olmayan, yaxud dolayı əlaqəsi olan illüstrasiyadan istifadə edilməsi tamamilə əsassızdır. Ümumiyyətlə, illüstrasiyalardan qeyri-peşəkar istifadə edilməsi və ya çox zaman qadının üzünü, fiqurunu təsvir etmək vasitəsilə əmtəə və ya ya xidməti reklam etmək cəhdi əks effektə gətirib çıxara bilər.
Yalançı imic yaradılması cəhdinə nümunə olaraq az tanınmış firmaların istifadə etdiyi "zəhlətökən" reklam elanlarını qeyd etmək olar. Ən geniş yayılmış üsullardan biri nüfuzlu firmaların adlarından, rəmzlərindən istifadə edilməsidir. Firmanın adının təmtəraqlığı, ibarəliliyi, qəlizliyin olması orta oxucuya az tanışdır və eyni zamanda, hər hansı tanış olmayan adı ehtiva edir. Bəzən belə bir "tələnin" təsiri nəticəsində parlaq reklam effektində "tilova gələn" sadəlövh və tez inanan müştəri fikri əmələ gəlir.
İllüstrasiyalar oxucular tərəfindən gərginlik olmadan hər hansı bir detalı fərqləndirməkdən ötrü kifayət qədər kəskin və təzadlı olmalıdır.
Reklam elanlarının illüstrasiyası zamanı tətbiq olunan bir neçə üsulu nəzərdən keçirək:
**Ştrixli şəkillər** – rəssam ağ səth üzərində rənglə işləyir. Sonra bu illüstrasiya fotoüsulla tərsinə, yəni qara və ağ səth üzərində yalnız qara rənglə işlənir. Sonra bu illüstrasiya fotoüsulla tərsinə, yəni qara səth üzərində ağ ştrixlərdən ibarət olur.
**Fotoqrafiyalar** – sanki reallığı qeyd edən hadisənin və ya vəziyyətin sübutu rolunu oynayır.
**Ton verən ştrixli şəkillər və oyma (yuyulma) ilə ştrixli şəkillər** - tündləşdirilmiş ştrix təsvirli sahələr ton vermə ilə ötürülür ki, bu da nöqtələrdən və xətlərdən ibarət olan sahələrdir.
**Linoqravyura texnikasında şəkillər** – çox zaman orijinal fotoqrafiya əsasında edilir. Onlar çox dəqiqdir, maraqla baxılır, kobud səth üzərində yaxşı canlanır.
**Ton verən şəkillər** – müəyyən atmosferin və ya dekorativ effektin yaradılması üçün istifadə olunur. Adətən, aeroqrafla oyma ilə, karandaşla və ya pastellə (əlvan karandaşla) yerinə yetirilir.
**Texniki və ya fotoqrafiya effektləri** – adi fotoqrafiyaların xüsusi keyfiyyətli və xassəli ştrixli illüstrasiyalara çevrilməsi üçün nəzərdə tutulmuşdur.
**Rəngli illüstrasiyalar** tam çəkili rəngli nəşrdə olan (dörd boyadan – sarı, al qırmızı, mavi və qara rəngli çap) rənglərin sadə kombinasiyasından ibarət ola bilər.
Rəmzlər və adların üslub tərtibatı, həmçinin bəzən loqotip adlanan üslub adlarını və firma rəmzlərini ehtiva edir. Loqotip, adətən, özünəməxsusluq vermək üçün və ya müxtəlif növ blanklarda və firmanın reklam təbliğat materialında tanınma vasitələri kimi tətbiq olunur.
(davamı var)

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Ekoturizm iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynayır

Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə "Qəbələ - sağlam mühit" İctimai Birliyi Balakən rayonunda "Şəki-Zaqatala regionu üzrə ekoturizmin inkişafı məsələləri" adlı layihə çərçivəsində tədbir keçirib.
Nazirlikdən bildirilib ki, tədbirdə layihənin rəhbəri Seymur Əzəmmədov layihənin necə yaranması, məzmunu, əhəmiyyəti, əhatə dairəsi haqqında təlim iştirakçılarına ətraflı məlumat verib.
Qeyd olunub ki, ekoturizm iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynayır. Ekoturizmin cazibədarlığı xidmət sahələrinin durmadan genişlənməsində, qoyulan sərmayələrin qısa müddətdə özünü doğrultmasında və gəlirin konvertasiyası mümkün olan valyuta şəklində alınmasındadır.



Tədbirdə layihənin məqsəd və perspektivləri, vəzifələri haqqında iştirakçılara geniş məlumatlar verilib.

# "UNEC Ekspert" jurnalının xüsusi buraxılışı: "Kriptovalyuta"

Azərbaycan Dövlət İqtisad Universitetinin təsis etdiyi "UNEC Ekspert" jurnalının xüsusi buraxılışı işıq üzü görüb. Jurnalın budəfəki sayı son zamanlar qlobal iqtisadiyyatın önəmli hissəsinə çevrilən, dünya ictimaiyyətində, eləcə də ölkəmizdə ən çox maraq doğuran elektron pullara – kriptovalyutaya həsr olunub. UNEC-in 27 eksperti kriptovalyuta bazarının xüsusiyyətləri, mexanizmi, iqtisadi və hüquqi aspektlərini geniş təhlil edib.
Jurnalda, həmçinin elektron valyuta bazarının ən çox müzakirə olunan aparıcı valyutası "bitcoin"in iqtisadi mahiyyəti, hüquqi statusu, məzənnəsinin təyin olunması və emissiya mexanizmi haqqında ekspert şərhləri oxucuların diqqətinə çatdırılıb.
"UNEC Ekspert"də blokçeyn texnologiyası və onun tətbiqi istiqamətləri, inkişaf perspektivləri, kriptovalyutanın Azərbaycanda tətbiqi imkanları, bitcoin və blokçeynin



təhlükələri, faydaları, kriptovalyutalar və konfidensial beynəlxalq pul köçürmələri, universitetlərin e-pul emissiya imkanları tam təsvir edilərək, fəlsəfi mahiyyəti açıqlanıb. Ekspert rəylərində virtual valyuta və ağıllı kontraktların təbiətinin öyrənilməsi, ümumi və fərqli xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bu maliyyə alətinin üstünlükləri və riskləri təhlil edilib, geniş təsnifatı verilib.
Jurnalda ilk dəfə olaraq xarici ekspert araşdırmasına da yer ayrılıb. Rusiyanın rəqəmsal iqtisadiyyat və e-maliyyə üzrə tanınmış eksperti Ruslan Makarov rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsi, e-pul anlayışı, onun funksiyası barədə geniş məlumat verib. Ekspert kriptovalyutanın müxtəlif ölkələrdə tətbiqinin qısa müddətdə güclü iqtisadi inkişafa təkan verdiyi haqqında nümunələr göstərərək, onun müsbət nəticələrindən bəhs edib.

# "The Culture Trip": Azərbaycana səyahət etmək üçün 11 səbəb

Dünya ölkələrinin mədəniyyətlərindən yazan "The Culture Trip" portalı Azərbaycan haqqında silsilə məqalələr yayıb. Məqalələrdə ölkəmizin görməli yerləri və turizm potensialı barədə ətraflı məlumat verilib.
Müəllif Sam Bedford təqdim etdiyi reportajlarında Azərbaycanın təbiəti, paytaxt Bakının simvolu olan Qız qalası, "Alov qüllələri" kompleksi, Atəşgah məbədi barədə ətraflı söz açır. O, Azərbaycanda turistlərin diqqətini cəlb edə biləcək kifayət qədər gözəl məkanların olduğunu vurğulayır.
"Azərbaycana gəlmək üçün 11 səbəb" adlı məqalədə Bakının tarixi yerləri, qədim tikililəri və müasir binaları haqqında məlumatlar yer alıb. Dünyanın böyük şəhərlərində təmizliyin problem olduğunu deyən müəllif Bakının indiyədək gördüyü ən təmiz şəhərlərdən biri olduğunu vurğulayır: "Bakı bulvarı Bayraq və Azadlıq meydanları daxil olmaqla bir neçə kilometr uzanır. "Ağ Şəhər"dən başlayaraq "Alov qüllələri"nədək olan istiqamətdə bulvar boyunca alış-veriş mərkəzləri, kafe və restoranlar




yerləşir. Digər paytaxt şəhərlərlə müqayisədə Bakı təhlükəsiz məkandır. Burada gecələr də rahat gəzib istirahət etmək mümkündür".
Müəllifin "Azərbaycanda 24 saatı necə keçirmək olar", "Azərbaycana 2 həftəlik səyahət marşrutu", "Azərbaycana ən yaxşı turlar", "Bakıda 20 görməli yer", "5 ən yaxşı çimərlik" başlıqlı yazılarında qədim İçərişəhər, Şirvanşahlar sarayı, Azərbaycan Xalça Muzeyi, məşhur Nizami küçəsi, Bakı Venesiyası və digər məkanlardan söz açılır. Sam Bedford bu məkanları dünyanın bir çox məşhur yerləri ilə müqayisə edir. Həmçinin, müəllif Şəki, Gəncə, Quba, Lənkəran, Şamaxı, Qəbələ və Qazax haqqında da turizm həvəskarlarına məlumat verir. Yazılarda Azərbaycanda "ASAN Viza" sisteminin tətbiqindən də bəhs edilir.
Müəllif "Azərbaycanda turistlərə lazım olacaq 21 ifadə" yazısında ölkədə rus dilinin ikinci ən çox işlənən dil olduğunu bildirir. Sam Bedford, həmçinin Azərbaycan musiqisi barədə məlumat verir. "Azərbaycanın ən yaxşı pop musiqiləri" başlıqlı məqaləsində müəllif tanınmış estrada və pop ifaçılarına diqqət çəkir. 2011-ci ildə keçirilən "Avroviziya" mahnı müsabiqəsindən sonra Azərbaycanın daha çox məşhurlaşdığını bildirən müəllif muğamlarımıza və meyxana janrına da diqqət çəkir.

**<u>Oxucuların diqqətinə:</u> "İqtisadiyyat" qəzetinin ötən 04-10 yanvar 2018-ci il tarixli 01 sayında "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı dərc edilərkən texniki səhvlərə yol verilmişdir. Bunu nəzərə alaraq, əlavədə həmin sənədi yenidən dərc edirik.**

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova qardaşı
**MƏHƏRRƏM MƏHƏRRƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA-nın müxbir üzvləri Akif Musayev və Qorxmaz İmanov, iqtisad elmləri doktorları Vahid Novruzov və Arif Hüseynov Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova qardaşı
**MƏHƏRRƏM MƏHƏRRƏMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Fuad və Elşən Hacızadələr Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova qardaşı
**MƏHƏRRƏM MƏHƏRRƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi professor Amil Məhərrəmova əzizi
**MƏHƏRRƏM MƏHƏRRƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500